QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 063 (5783) **10 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Bu, bizim gücümüzü, ölkəmizin qüdrətini artırır"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanın 10 milyonuncu sakininin valideynləri ilə görüşüblər*



Səh 2

MİLLİ UĞURLARA İMZA ATAN LİDER



6

Heydər Əliyev Sarayında məşhur pianoçu Denis Matsuyevin konserti olub



3

Prezident İlham Əliyev bir il əvvəlki reytinqini və seçicilərinin yüksək etimadını daha da artırıb



3

"Hesablama Palatasının strukturunda dəyişikliyə ehtiyac var"



3

Biz 10 milyon olduq!




4

Hikmət Hacıyev: Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindəki təbii resursları riyakarcasına talan edir



3

8

""Opinion Way"in keçirdiyi sorğunun nəticələri Azərbaycan reallığının göstəricisidir"



7

"Xalqımız Prezidentin son bir ildəki fəaliyyətini yüksək qiymətləndirir"



5

Milli Məclisin növbəti plenar iclası keçirilib



# "Bu, bizim gücümüzü, ölkəmizin qüdrətini artırır"

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanın 10 milyonuncu sakininin valideynləri ilə görüşüblər*



## Rəsmi xronika

Prezident İlham Əliyev Çingiz Abdullayevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan ədəbiyyatının inkişafı və təbliğində xidmətlərinə görə Çingiz Akif oğlu Abdullayev "Şərəf" ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1548-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 oktyabr tarixli 1082 nömrəli Fərmanı ilə təsdiq edilmiş "ASAN Viza" sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında, Azərbaycan Respublikasının Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 5 mart tarixli 1520-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.







***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 9-da Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşüblər.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və xanımı uşağın valideynləri ilə söhbət etdilər.

Rauf Həsənov: 2019-cu il aprelin 6-da saat 03.30 radələrində dünyaya gəldi.

Prezident İlham Əliyev: Bilirəm. Biz bu hadisəni izləyirdik. Aprelin 6-da sizin həyatınızda, eyni zamanda, ölkəmizin həyatında çox əlamətdar hadisə baş vermişdir. Sizin körpəniz ölkəmizin 10 milyonuncu sakinidir. Sizi təbrik edirəm, sağlam böyüsün, sizi sevindirsin, xalqımızı sevindirsin. Bu, tarixi hadisədir. Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını təbrik edirəm.

Rauf Həsənov: Biz gözləmirdik ki, bizim körpəmiz Azərbaycanın 10 milyonuncu sakini olar.

Prezident İlham Əliyev: Əhalimiz artır. Yadımdadır, 9 milyonuncu sakin 2010-cu ildə dünyaya gəldi. Doqquz il ərzində əhalimiz 1 milyon artdı. Amma son 15 il ərzində əhali 1,7 milyon nəfər artdı. Bu, bizim gücümüzü, ölkəmizin qüdrətini artırır. Eyni zamanda, onu göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa sosial vəziyyətlə bağlıdır.

Rauf Həsənov: Mənim xəbərim yox idi. Mətbuat xəbərlərinə girib oxudum, gördüm ki, sağ olun, elə ilk öncə Siz təbrik etmisiniz.

Prezident İlham Əliyev: Bəli, bəli.

Rauf Həsənov: Çox sağ olun, çox minnətdarıq.

Birinci xanım Mehriban Əliyeva: Çox göyçək uşaqdır.

Prezident İlham Əliyev: Bu, sizin birinci uşağınızdır?

Rauf Həsənov: Bəli, ilk övladımızdır.

Birinci xanım Mehriban Əliyeva: İlk uşağınızdır?

Nigar Ocaqova: Bəli, ilk uşağımızdır.

Birinci xanım Mehriban Əliyeva: Maşallah, Allah qorusun.

Rauf Həsənov: Elə ilk olaraq Siz təbrik etdiyinizə görə adını da Sizin adınızı qoyduq.

Nigar Ocaqova: Siz də xeyir-duasını verin.

Birinci xanım Mehriban Əliyeva: Verirəm. Xoşbəxt böyüsün, sağlam böyüsün.

Prezident İlham Əliyev: Bu hadisəni bütün xalqımız bayram edir.

Rauf Həsənov: Bəli, bütün ölkəmiz bayram edir. Biz də çox sevincliyik, çox sevinirik.

Nigar Ocaqova: Biz də şəhərimizin belə gözəl tibb ocaqlarının olmasına sevinirik. Perinatal Mərkəzin direktoru Sevinc xanıma, körpənin sağlam şəkildə dünyaya gəlməsinə görə Rübabə xanıma təşəkkürümüzü bildiririk. Sağ olsunlar.

Prezident İlham Əliyev: Bu mərkəz çoxdan fəaliyyət göstərirdi. Təqribən 10 il bundan əvvəl əsaslı şəkildə yenidən quruldu, təmir olundu və indi ölkəmizin aparıcı tibb mərkəzlərindən biridir. Son illərdə ölkəmizin hər bir yerində doğum evləri, doğum şöbələri, xəstəxanalar tikilir. Yəni, indi tibbi xidmət almaq üçün bütün şərait var.

Birinci xanım Mehriban Əliyeva: Götürmək olar balacanı?

Rauf Həsənov və Nigar Ocaqova: Buyurun.

Birinci xanım Mehriban Əliyeva: Maşallah.

Nigar Ocaqova: Maşallah gününüz olsun.

Birinci xanım Mehriban Əliyeva: Allah qorusun! Xoşbəxt, sağlam, analı-atalı böyüsün!

Rauf Həsənov: Çox sağ olun ki, gəldiniz.

Prezident İlham Əliyev: Bu, Həsənova Mehriban Rauf qızının sertifikatıdır. Ölkəmizin 10 milyonuncu sakinidir. Bunu sizə təqdim edirəm.

Rauf Həsənov: Çox sağ olun.

Prezident İlham Əliyev: Bu həmin sertifikatın başqa variantıdır. Sizə dövlət tərəfindən mənzil hədiyyə olunur. Bu da mənzilin çıxarışıdır.

Rauf Həsənov: Çox sağ olun.

Prezident İlham Əliyev: Gözəl balanızın hesabına vəsait də köçürülür.

Rauf Həsənov: Çox sağ olun. Allah Sizdən razı olsun.

Prezident İlham Əliyev: Xeyirli işlərdə istifadə edin. Bu da hədiyyələrdir.

Rauf Həsənov: Çox sağ olun. Sizə minnətdaram.

Birinci xanım Mehriban Əliyeva: Çox sağ olun. Təbrik edirik.

## Heydər Əliyev Sarayında məşhur pianoçu Denis Matsuyevin konserti olub





Aprelin 8-də Heydər Əliyev Sarayında dünyaca məşhur virtuoz pianoçu, Rusiyanın Xalq artisti, UNESCO-nun xoşməramlı səfiri Denis Matsuyev konsert proqramı ilə çıxış edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva konsertdə olublar.

Konsertdə Denis Matsuyev L.Bethovenin fortepiano üçün "17 nömrəli Sonata"sını, S.Raxmaninovun fortepiano üçün Korelli mövzusunda variasiyalarını, F.Şopenin "4 nömrəli Ballada"sını, P.Çaykovskinin "Düşüncə"sini, S.Prokofyevin fortepiano üçün "7 nömrəli sonata"sını və digər əsərləri ifa edib.

Denis Matsuyev haqlı olaraq zəmanəmizin ən görkəmli pianoçularından biri hesab edilir. Onun səhnə tərəfdaşları arasında ABŞ, Fransa, Almaniya, Böyük Britaniya, İtaliya, Avstriya, Niderland, Macarıstan və digər ölkələrin məşhur simfonik orkestrləri və dirijorları olub. P.Çaykovski orkestri ilə fortepiano konserti Böyük Britaniyanın ən nüfuzlu "Gramophone" jurnalı tərəfindən 2014-cü ilin aprelində "Ayın albomu" adına layiq görülüb.

Qeyd edək ki, Denis Matsuyev 1975-ci ildə Rusiyanın İrkutsk şəhərində musiqiçi ailəsində anadan olub. Valideynləri balaca Denisdə musiqi qabiliyyətini görərək onu fortepiano dərslərinə yazıblar. İrkutskda o, Mayakovski adına 11 nömrəli musiqi məktəbində oxuyub. Pianoçu 1990-cı ildə valideynləri ilə birgə Moskvaya köçərək Moskva Dövlət Konservatoriyasının nəzdində olan musiqi məktəbində təhsilini davam etdirib. 1993-cü ildə D.Matsuyev Moskva Dövlət Konservatoriyasına daxil olub və tanınmış musiqiçilərdən dərs alıb.

D.Matsuyev 23 yaşında olarkən P.Çaykovski adına XI Beynəlxalq müsabiqədə uğurlu çıxışından sonra şöhrət qazanıb. Pianoçu öz yaradıcılığında novatorluq və Rusiya fortepiano məktəbinin ənənələrini birləşdirir. Bu gün Denis Matsuyev dünyanın ən yaxşı konsert zallarının arzuolunan qonağı, ən böyük musiqi festivallarının mühüm iştirakçısı, Rusiyanın, Avropa, Şimali Amerika və Asiya ölkələrinin aparıcı simfonik orkestrlərinin daimi tərəfdaşıdır.

## Hikmət Hacıyev: **Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərindəki təbii resursları riyakarcasına talan edir**



Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz siyasəti nəticəsində ölkəmizin işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlər bilavasitə münaqişənin həllini əngəlləyən məsələdir. Ermənistan atəşkəs rejiminin arxasında gizlənərək riyakarcasına Azərbaycanın işğal olunmuş ərazilərinin təbii resurslarını talan edir, həmçinin demoqrafik vəziyyəti dəyişdirir, Azərbaycanın maddi-mədəni irsinin məhv edilməsi, onun xalqımıza məxsusluğunun izlərinin silinməsi kimi fəaliyyətləri həyata keçirir. Ona görə də beynəlxalq hüququn norma və prinsiplərini nəzərə alaraq Azərbaycan Respublikası işğal olunmuş ərazilərindəki qeyri-qanuni fəaliyyətlər mövzusunu ardıcıl olaraq beynəlxalq tədbirlərdə qaldırır. Bu fikirləri AZƏRTAC-a açıqlamasında BMT-nin Cenevrə Bölməsində "Münaqişə ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətlərin insan hüquqlarına təsirləri" mövzusunda beynəlxalq konfransda iştirak edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev konfransın mahiyyətinə toxunaraq qeyd edib ki, tədbirdə işğal olunmuş ərazilərdəki qeyri-qanuni iqtisadi fəaliyyətlər və onların insan hüquqlarına təsiri məsələləri müzakirəyə çıxarıldı. Burada bilavasitə Azərbaycanın işğal olunmuş ərazilərindən didərgin salınmış və etnik təmizləməyə məruz qalmış məcburi köçkünlərin, o cümlədən Dağlıq Qarabağın azərbaycanlı icmasının bütün fundamental hüquq və azadlıqlarının, eləcə də mülkiyyət hüququnun kobud şəkildə pozulması kimi hallar mövcuddur. Bu da Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlərlə birbaşa bağlıdır. Bu konfransda BMT yanında akkreditə olunmuş ölkələrin səfirləri, BMT-nin aidiyyəti ixtisaslaşmış strukturlarının nümayəndələri, beynəlxalq hüquqşünaslar və ekspertlər iştirak edirlər. Buna görə də bu məsələyə, ilk növbədə, beynəlxalq hüquq nöqteyi-nəzərindən yanaşıldı və müzakirələrdə "bugünkü beynəlxalq hüquqda çatışmayan məqamlar varmı və onlar qeyri-qanuni fəaliyyətlərin qarşısının alınmasında nə dərəcədə səmərəlidir?" kimi suallara aydınlıq gətirilməsinə çalışıldı.

Şöbə müdiri qeyd edib ki, konfransda digər münaqişə zonalarında bu sahədə mövcud təcrübələr və baxışlar da müzakirə olundu. Azərbaycan Respublikasının üzləşdiyi problem də bu mövzu əsasında təqdim edildi: "Düşünürük ki, Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyətlər mövzusu bundan sonrakı beynəlxalq tədbirlərdə də davam etdiriləcək. Çox müsbət haldır ki, bu tədbir məhz BMT-nin binasında baş tutur. Azərbaycan Respublikası bu tədbiri təşkil etməklə müasir beynəlxalq hüquqda və beynəlxalq humanitar hüquqda bu mövzunun inkişaf etdirilməsi və beynəlxalq hüquq nöqteyi-nəzərindən məcəlləşdirilməsi istiqamətində addımların atılması prosesinə öz töhfəsini verir. Belə tədbirlər çərçivəsində Azərbaycan da bu kontekstdə öz problemini -işğal olunmuş ərazilərində Ermənistan tərəfindən qeyri-qanuni fəaliyyətlərin həyata keçirilməsini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırır və bu məsələ ətrafında müzakirələr aparılır.

## Prezident İlham Əliyev bir il əvvəlki reytinqini və seçicilərinin yüksək etimadını daha da artırıb

*""Opinion Way"in keçirdiyi sorğunun nəticələri Azərbaycan reallığının göstəricisidir"*




"Fransanın "Opinion Way" şirkəti tərəfindən aparılan sorğunun nəticələri Azərbaycan reallığının göstəricisidir. Sorğu bir daha təsdiqlədi ki, Azərbaycan vətəndaşı, seçicilər Prezident İlham Əliyevin yanındadır və ölkə başçısına etimad yüksək səviyyədədir". Bu fikirləri SİA-ya açıqlamasında "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.

Siyasi ekspert bildirib ki, təkcə Azərbaycanda deyil, eləcə də bütün dünyada Liderin reytinqinin yüksək olmasını şərtləndirən əsas amil onun xalqla birliyidir. Ötən il keçirilən prezident seçkilərinin yeni institusional islahatlar üçün impuls olduğunu dilə gətirən siyasi ekspert söyləyib ki, bu müddət ərzində dövlət başçısı tərəfindən xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb, Prezident xüsusilə də vətəndaşlarla birbaşa təmasa girərək, onların problemlərini öz dillərindən eşidib: "Ekspertlər də bildirirlər ki, əgər hər bir vətəndaşın Prezidenti ilə xəyalı söhbəti reallaşırsa, bu, həmin ölkədə Liderlə vətəndaş arasında istəyin, hörmətin göstəricisinə çevrilir. Bu baxımdan görülən işləri, atılan addımları ölkədaxili vəziyyəti və Azərbaycan Prezidentinin fəaliyyətini yüksək qiymətləndirməyi təmin edən amillər hesab etmək mümkündür".

B.Quliyev qeyd edib ki, ölkə başçısının 15 illik fəaliyyətinin məntiqi nəticəsi olan, son 1 il müddətində davam etdirilən siyasət sayəsində Azərbaycanda sosial, iqtisadi, mədəni inkişafla yanaşı, sabitlik, təhlükəsizlik də tam təmin olunub: "Prezident İlham Əliyev tərəfindən 15 ildə həyata keçirilən siyasət son 1 ildə daha fərqli şəkildə diqqəti cəlb edir. Bildiyiniz kimi, bu gün Azərbaycan həm sosial, həm siyasi, həm də iqtisadi sahədə dünyaya inkişafın yeni modelini nümayiş etdirir. Son 1 ildə Azərbaycan Prezidenti bütün bunlarla yanaşı, liderin vətəndaşlara olan münasibətinin də yeni modelini ortaya qoymuş oldu. Belə ki, dövlət başçısının müxtəlif görüşlərdə, tədbirlər çərçivəsində, baş verən hadisələr zamanı vətəndaşların yanında olması, onların problemlərinin həllinə operativ şəkildə reaksiya verməsi, problemləri onların öz dillərindən öyrənməsi artıq bütün dünya üçün yeni model, təcrübədir".

Baş redaktor vurğulayıb ki, "Opinion Way" kimi müstəqil bir şirkət tərəfindən həyata keçirilən sorğuda respondentlərə təqdim olunan bütün suallara verilən cavablarda dövlət başçısına göstərilən yüksək etimad bir daha sübut edir ki, Azərbaycan vətəndaşı ölkə rəhbərini, həyata keçirilən siyasəti dəstəkləyir: "Məhz elə bunun nəticəsidir ki, "Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz?" sualına respondentlərin 85,1 faizi, "Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz?" sualına 90,5 faizi, seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair suala 75,6 faizi, kadr islahatları ilə bağlı suala 78,8 faiz müsbət cavab verilib. Bununla yanaşı, "Regionların sosial-iqtisadi inkişaf proqramı" və hökumətin bölgələrdə həyata keçirdiyi fəaliyyət nəticəsində sizcə regionlar inkişaf edibmi?" sualına respondentlərin 93,1 faizi "hə" cavabı verib, 72,3 faizi hökumətin bu istiqamətdəki fəaliyyətini tam müsbət, 20,8 faizi "əsasən müsbət" kimi dəyərləndirib. Prezidentin bölgələrə çoxsaylı səfərlərinin faydalılıq əmsalı respondentlərin 90,4 faizi tərəfindən müsbət dəyərləndirilib, 48,9 faiz bu səfərləri "çox yüksək", 27,5 faiz "əsasən yüksək", 14 faiz isə "qismən yüksək" kimi qiymətləndirib. Sorğunun Prezident İlham Əliyevin xarici siyasəti ilə bağlı nəticələri də əhalinin müsbət mövqeyini ifadə edib. Ümumilikdə götürsək, sorğuda iştirak edənlərin 89,9 faizi bu sualı müsbət cavablandırıb, onların 73,9 faizi suala "əla" kimi münasibət bildirib. Ümumilikdə sorğu Azərbaycanda həyata keçirilən siyasətin düzgün olduğunu, xalq-lider birliyini bir daha təsdiq etmiş olur".

## "Hesablama Palatasının strukturunda dəyişikliyə ehtiyac var"



"Milli Məclis tərəfindən Hesablama Palatası haqqında qanun qəbul olunub. Hər kəsə məlumdur ki, Palata öz imkanları daxilində kifayət qədər fəaliyyət göstərir, hətta bir çox hallarda imkanlarından da kənar fəaliyyət göstərir. Amma strukturda ciddi şəkildə dəyişikliyə ehtiyac var. Yeni sistemə daxil olmalıyıq". SİA-nın xəbərinə görə, bunu Milli Məclisin deputatı Siyavuş Novruzov Parlamentin dünən keçirilən iclasında Hesablama Palatasının hesabatının müzakirəsi zamanı çıxış edərkən deyib. O bildirib ki, bu gün ölkəmizdə struktur islahatları aparılır, yeniləri yaradılır, köhnələri ləğv olunur: "Bu baxımdan Palatanın gələcək fəaliyyətini qanun əlavə və dəyişikliklər etməklə, Prezident tərəfindən həyata keçirilən islahatlar sürətinə gətirib çıxarmalıyıq. Biz gözləməliyik ki, kimsə 5 il müddətində idarə etdiyi qurumu yeyib dağıtsın, sonra aşkara çıxsın ki, yeyinti var və həmin vəsait büdcəyə geri qaytarılsın. Burada itirən dövlət və insanlardır. Çünki, həmin vəsaitlər vətəndaşların sosial rifah halına müsbət təsir göstərə bilər".

S.Novruzov qeyd edib ki, nöqsanın, korrupsiya hallarının zamanında aşkarlanması üçün Palata tərəfindən hesabatlar 6 aylıq və ya 1 illik olmalıdır: "Aralıq dövrdə ciddi şəkildə monitorinqlər aparılmalıdır. Əgər lazımdırsa, bura kadrlar cəlb olunmalı, korrupsiyaya meylli şəxslər tapılmalıdır. Gələcəkdə bunlar nəzərə alınmalı, bu işləri yeni metodla həyata keçirməliyik. Palataya əlavə dəstək verməklə büdcəyə nəzarət edən orqan kimi bu məsələdə bundan sonra da ciddi addımlar atsın".

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

10 aprel 2019-cu il

# Biz 10 milyon olduq!

## *2003-2018-ci illərdə Azərbaycan əhalisinin sayı 1,8 milyon nəfər artıb*

***Aprelin 6-da saat 03:30-da Azərbaycanda bir körpə doğuldu və bununla da ölkə əhalisinin sayı 10 milyon nəfərə çatdı. AZƏRTAC xalqımızın sevincinə səbəb olan bu əlamətdar hadisə ilə bağlı bəzi araşdırmalar aparıb, ölkəmizdə demoqrafik vəziyyətin ayrı-ayrı mərhələlərinə, müxtəlif dövrlərdə ortaya çıxan problemlərə, eyni zamanda, son illər demoqrafik inkişafın təmin edilməsi istiqamətində atılan addımlara nəzər salıb.***




Əvvəlcə, hər kəs üçün maraqlı ola biləcək bir faktdan başlayaq: 1897-ci ildə Azərbaycan əhalisinin sayı 1 milyon 807 min nəfər idi. 1997-ci ildə bu göstərici 7 milyon 847,5 min nəfər təşkil edirdi: yəni yüz ildə təxminən 6 milyon artım. Bu yüz ildə Azərbaycan dörd dəfə kəskin demoqrafik çətinliklərlə üzləşmişdi. Statistik məlumatlara əsasən, 1913-1920-ci illərdə Birinci Dünya müharibəsi, xarici müdaxilə, vətəndaş müharibəsi, ermənilər tərəfindən azərbaycanlıların soyqırımı və digər hadisələrin təsiri nəticəsində əhalinin sayı 387 min nəfər azalmış, 2 milyon 339 min nəfərdən 1 milyon 952 min nəfərə enmişdi. Növbəti demoqrafik böhran 1941-1945-ci illərdə, Böyük Vətən müharibəsi zamanı yaşandı. Azərbaycan əhalisinin sayı 1940-cı ilin əvvəlindəki 3 milyon 274,3 min nəfərdən 1945-ci ilin əvvəlində 2 milyon 705,6 min nəfərədək azaldı. Biz müharibədən əvvəlki səviyyəyə yalnız 10 il sonra, 1955-ci ildə çata bildik.

1948-1953-cü illərdə Ermənistan ərazisindən 150 min nəfərdən çox azərbaycanlının deportasiya olunması, 1988-ci ildən başlayaraq erməni təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal edilməsi, bir milyon nəfərədək soydaşımızın qaçqın və məcburi köçkünə çevrilməsi, nəhayət, Qarabağ müharibəsi də demoqrafik vəziyyətə təsirsiz ötüşmədi.

Demoqrafik proseslər cəmiyyət həyatının bir çox sahələri ilə üzvi surətdə bağlı olan fenomendir. Sosial-iqtisadi vəziyyət demoqrafik proseslərə, o da öz növbəsində, sosial-iqtisadi hadisələrə təsir göstərir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ölkədə baş vermiş siyasi, sosial-iqtisadi dəyişikliklər, həyatın bütün sahələrini bürümüş böhran demoqrafik inkişafda öz izlərini qoymaya bilməzdi. Lakin ilk vaxtlar bu təsir lazımi səviyyədə öyrənilmir və ölkədə demoqrafik proseslərin inkişafı proqnozlaşdırılmırdı. Bu sahədə də dövlət siyasətinin əsasları ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qoyuldu. Ölkədə siyasi-iqtisadi təlatümlər nisbətən səngidikdən, sabitlik bərqərar olduqdan sonra demoqrafik inkişaf barədə düşünmək imkanı yarandı. Ulu Öndərin 1999-cu il 9 dekabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq olundu. Beləliklə, ölkədə ilk dəfə olaraq mövcud demoqrafik vəziyyətin qiymətləndirilməsi aparıldı, ona təsir göstərən əsas amillər - sağlamlığın pisləşməsi, doğum səviyyəsinin aşağı düşməsi, əhalinin ölüm səviyyəsinin, ana və uşaq ölümünün yüksək olaraq qalması, gözlənilən ömür müddətinin aşağı olması, əhalinin artım sürətinin azalması və digər problemlərin həlli təxirəsalınmaz vəzifə kimi qarşıya qoyuldu. Eyni zamanda, bu sahədə dövlət siyasətinin əsas məqsədi, vəzifələri və prinsipləri müəyyənləşdirildi, müvafiq dövlət proqramının hazırlanması təşəbbüsü qaldırıldı.

Həmin sənəddəki bəzi maraqlı faktları xatırlatmaq yerinə düşər. Azərbaycanda əhalinin ən sürətli artımı 1960-cı illərin əvvəllərində baş vermişdi. 1960-cı ildə keçmiş İttifaqda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 24,9 nəfər, təbii artım səviyyəsi 17,8 nəfər olmuşdursa, Azərbaycanda bu göstəricilər müvafiq surətdə 42,6 və 36,9 nəfər təşkil edirdi. Lakin 1965-ci ildən etibarən respublikamızda əhalinin doğum və təbii artım səviyyəsi tədricən aşağı düşməyə başladı və əsrin sonunda 1000 nəfərə düşən doğum səviyyəsi 17,4 nəfər, təbii artım səviyyəsi isə 11,2 nəfər azaldı. Əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi isə 1990-1994-cü illərdə, yəni atəşkəs dövrünədək 6,0 nəfərdən 7,3 nəfərədək qalxmışdı. Bir yaşınadək uşaqlar arasında ölüm səviyyəsi, eləcə də ana ölümləri də xeyli yüksək olaraq qalmaqda idi. Demoqrafik inkişafın ən mühüm göstəricilərindən biri olan nikah və boşanma səviyyəsi də ürəkaçan deyildi. 1991-1997-ci illərdə respublikada nikahların sayı xeyli azalaraq 74,4 mindən 47 minə düşmüş, boşanma hallarının sayı artmağa başlamışdı.

1999-cu ildə ölkəmizdə demoqrafiya siyasətinin əsas konturlarını müəyyənləşdirildikdən sonra növbəti mühüm addım atıldı. Prezident İlham Əliyevin 2004-cü il 11 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı" təsdiq edildi. Bununla da demoqrafik proseslərin idarə olunması və nizamlaması istiqamətində yeni era başlandı. Demoqrafik inkişafı səciyyələndirən ailə-nikah, doğum, ölüm, təbii artım, insanların sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, əhalinin məşğulluğunun və həyat səviyyəsinin yaxşılaşdırılması kimi məsələlərə kompleks yanaşma çox keçmədən öz bəhrəsini verməyə başladı. 2002-ci ildə Azərbaycanda 8 milyon 202,5 min nəfər əhali qeydə alınmışdı. 2010-cu ilin əvvəlində bu göstərici 9 milyon nəfərə çatdı...

İndi isə biz 10 milyonuq! 2003-2018-ci illərdə əhali sayında təxminən 1,8 milyon artım baş verib. Bunun 1 milyonu son səkkiz ilin payına düşür.

Bir qədər əvvələ qayıdaq. 1995-ci ildən başlayaraq respublikamızda aparılan sosial-iqtisadi islahatlar əhalinin rifah halının yaxşılaşmasına səbəb oldu və nəticədə əsas demoqrafik göstəricilərdən biri sayılan ölüm səviyyəsinin azalmasında müsbət dəyişikliklər baş verdi. Əgər 1990-1994-cü illərdə bir sıra səbəblər üzündən, o cümlədən erməni təcavüzü nəticəsində ölüm əmsalı 6,1 faizdən 7,3 faizədək artmışdısa, sonrakı dövrdə bu göstərici azalaraq 2002-ci ildə 5,8 faizə enmişdi. Körpə ölümü isə üç dəfədən çox azalmışdı: 1990-cı ildə 9,8 faiz (ümumi əhalinin ölüm səviyyəsinə nisbətdə), 2002-ci ildə 3,1 faiz. Ölkə iqtisadiyyatının dinamik inkişafı və əhalinin sosial vəziyyətinin yaxşılaşması ömür uzunluğuna da müsbət təsirini göstərirdi. Belə ki, 1990-1995-ci illərdə əhalinin orta ömür uzunluğu göstəricisi 71,1 yaşdan 69,1 yaşadək azaldığı halda, 1995-2002-ci illərdə bu göstərici 72,2 yaşadək artmışdı.

2003-2018-ci illəri Azərbaycanın sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər dövrü kimi səciyyələndirmək olar. Bu illər ərzində ölkədə 2 milyona yaxın yeni iş yeri yaradılıb, işsizlik 5 faizə enib. Yoxsulluq səviyyəsi 49 faizdən 5,4 faizə qədər azalıb. Əməkhaqları 7 dəfə, eləcə də minimum əməkhaqları 6,5 dəfə artırılıb. Regionların misilsiz inkişafı kənddən şəhərə axını dayandırıb.

Əhalinin sağlamlığının qorunması istiqamətində görülən tədbirlərə gəlincə, hətta ucqarlarda yaşayan insanlar müasir tibbi xidmətlə əhatə olunub. Şəhər və rayon xəstəxanaları, doğum evləri əsaslı təmir olunur və ya yeniləri tikilir. Prezidentin təşəbbüsü ilə əhali hər il pulsuz tibbi müayinədən keçirilir. Deməli olar, bütün bölgələrdə yeni idman qurğuları, stadionlar tikilib.

İndi ölkədə heç bir çadır düşərgəsi qalmayıb. Məcburi köçkünlər üçün hər cür infrastruktura malik şəhərciklər, qəsəbələr salınıb: on beş ildə salınmış 100-dən çox qəsəbə və şəhərciyə 265 min nəfər köçürülüb.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə kompleks tədbirlər görülür: müavinətlər və pensiyalar, təqaüdlər, eləcə də minimum əməkhaqqı davamlı olaraq artırılır. Minlərlə gənc ailə ipoteka proqramından yararlanaraq mənzil sahibi olur, dövlət vəsaiti hesabına vətəndaşlar üçün sosial evlər tikilir. Bütün bunlar bəlkə də dünyada dövlətin öz vətəndaşına qayğısının analoqu olmayan nümunələridir. Hazırda sosial sahədə davam edən islahatlar inqilabi xarakter almaqdadır. Dövlətimizin başçısının 2019-cu ilin ilk aylarında imzaladığı fərman və sərəncamlara nəzər salsaq bunu aydın görə bilərik. Martın 1-dən minimum əməkhaqqı 38,5 faiz artırılaraq 130 manatdan 180 manata qaldırılıb. Prezidentin bu sərəncamı 600 min nəfəri əhatə edib. Yaxud, "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncama əsasən yaşa və əlilliyə, ailə başçısını itirməyə görə sosial müavinətlərin məbləği əhəmiyyətli dərəcədə artırılıb. Həmçinin sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara sosial müavinətin məbləği 150 manata, uşağın anadan olmasına görə müavinət 200 manata, beşdən çox uşağı olan qadınlara hər uşaq üçün sosial müavinətin məbləği 55 manata çatdırılıb və sair. Digər bir sərəncamla Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin alınması məqsədilə 35 milyon manat ayrılıb.

Prezident cəmiyyəti düşündürən hər bir məsələdə xalqla həmrəylik nümayiş etdirir və irəli sürülən məsələlərin həlli ilə bağlı operativ tədbirlər görür. Bunun nəticəsi olaraq ümumilikdə üç milyon insanı əhatə edən böyük sosial paketin həyata keçirilməsinə başlanılıb. Ölkəmizdə getdikcə dərinləşən islahatlar iqtisadi və sosial sahələrin inkişafına təkan verməklə yanaşı, demoqrafik proseslərin idarə edilməsində də mühüm rol oynayır, ona birbaşa və ya dolayısı ilə öz müsbət təsirini göstərir

Beynəlxalq Türk Mədəniyyət Təşkilatı (TÜRKSOY) baş katibinin müavini, professor Fırat Purtaş AZƏRTAC-a müsahibəsində Azərbaycan əhalisinin sayının 10 milyon nəfərə çatmasını tarixi və strateji əhəmiyyətə malik hadisə adlandırıb. Türkiyəli professorun bu fikri ilə razılaşmamaq mümkün deyil: "Əhalinin artım dinamikasını saxlamaq müasir dövrdə bir çox ölkələr üçün böyük problemə çevrilib. Azərbaycanda və Türkiyədə isə əhalinin təbii artımındakı dinamik inkişaf dövlətlərimizin gücünə güc qatır". Bu, həmçinin Prezident İlham Əliyevin müdrikcəsinə düşündüyü neft kapitalını insan kapitalına çevirmək strategiyasının təntənəsidir. Fırat Purtaşın qeyd etdiyi kimi, müasir təfəkkürlü, elmli və milli düşüncəli gənc nəslin yetişməsinin əsasında məhz əhalinin təbii artımı dayanır.

Xalqımızın və dostlarımızın hədsiz sevincinə səbəb olan mühüm hadisə - Azərbaycanın 10 milyonuncu sakininin doğulması dövlətimizin başçısı İlham Əliyevin növbəti müddətə prezident seçilməsinin birinci ildönümü ərəfəsinə təsadüf etdi. Yuxarıda vurğulandığı kimi, demoqrafik inkişafla ölkənin sosial-iqtisadi vəziyyəti arasında üzvi bağlılıq var. İnsanlar bunu öz gündəlik həyatlarında hiss edir, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahatlar kursunu rəğbətlə qarşılayır, yüksək qiymətləndirirlər. Fransanın "Opinion Way" şirkətinin Azərbaycan əhalisi arasında keçirdiyi rəy sorğusunun nəticələri buna ən yeni misal ola bilər. Təsadüfi deyil ki, sorğuda iştirak edən respondentlərin 80 faizindən çoxu ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Çünki dünyada və bölgədə yaşanan çoxsaylı mənfi proseslərə baxmayaraq, Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb.

Azərbaycanda əhali sayının 10 milyon nəfərə çatması da xalqın təqdir etdiyi və dəstəklədiyi sosialyönümlü siyasətin növbəti təzahürüdür, Prezidentin siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığına daha bir sübutdur.

# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin sədri Oqtay Əsədov iclasın gündəliyini təqdim edib. Gündəliyə 19 məsələ daxil idi. Əvvəlcə Azərbaycan Respublikası Hesablama Palatasının hesabatı dinlənilib.***



Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib ki, 2018-ci il Azərbaycan Respublikası üçün əlamətdar illərdən olub. Ötən il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqın etimadını bir daha qazanaraq prezident seçkilərində parlaq qələbə qazandığı, Şərqdə ilk respublikanın yaranmasının 100 illik yubileyinin, ordunun və parlamentin 1 əsrlik yaşının qeyd edildiyi il olub.

2018-ci ildə Hesablama Palatasının da tarixində mühüm hadisə baş verib, müasir çağırışlara cavab vermə imkanı yaradan yeni qanun qəbul edilib. Bu qanunun qəbulu vəzifələrimizi, səlahiyyətlərimizi genişləndirmək və dəqiqləşdirməklə dövlət vəsaitlərinin icrasına nəzarət sahəsində yeni yanaşmaların tətbiqi üçün hüquqi bazanı formalaşdırıb və bərabər olaraq məsuliyyətimizi də dəfələrlə artırıb. Həmçinin 2018-ci ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə dövlət büdcəsinin vəsaitlərinin icrası ilə bağlı təqdim edilən hesabatların sayının artırılması və dövrlüyünün müəyyən edilməsi məqsədini güdən iki qayda da qəbul edilib.

2018-ci ildə Hesablama Palatası tərəfindən həyata keçirilən fəaliyyətin hər bir istiqaməti üzrə qanunvericiliyin tələbinə uyğun olaraq hesabat tərtib edilib. Bu hesabatda 2018-ci ildə Hesablama Palatasının əsas fəaliyyət göstəricilərinə dair mühüm informasiyalar, o cümlədən nəzarət fəaliyyətinin nəticələri və bu fəaliyyətin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində nəzərdə tutulan tədbirlər, beynəlxalq audit standartlarına keçidin təmin edilməsi məqsədilə hazırlanmış metodoloji təlimatlar, hökumət və hüquq-mühafizə orqanları ilə şəffaflığın və hesabatlılığın təmin edilməsi barədə əməkdaşlıq, kadrların inkişafı üzrə və beynəlxalq fəaliyyətlər barədə məlumatlar yer alıb.

Hesablama Palatasının sədri qeyd edib ki, 2018-ci ildə ümumilikdə 58 nəzarət tədbirinin, o cümlədən 53 auditin və 5 təhlilin nəticələrinə dair Kollegiya qərarları qəbul edilib, 1 tədbir növbəti ilə keçirilib və 1 tədbirin nəticələri hesabat dövrünədək yekunlaşdırılmayıb. Başa çatdırılmış 53 auditdən 3-ü "Dövlət sirri haqqında" Qanunun tələblərinə uyğun olaraq hüquq-mühafizə orqanlarında məxfi qaydada aparılıb, 5 tədbirlə isə Dövlət Sosial Müdafiə Fondunun fəaliyyəti əhatə olunub. Audit tədbirləri ilə ümumilikdə 9,2 milyard manat vəsait əhatə olunub ki, bunun 66,5 faizini dövlət büdcəsinin xərcləri təşkil edib. Ümumilikdə hesabat ilində dövlət büdcəsinin auditlə əhatə olunmuş məbləği 2017-ci illə müqayisədə artsa da, əhatə edilmiş cəmi məbləğ əvvəlki ilin müvafiq göstəricisi ilə müqayisədə 6,8 faiz az olub. Dövlət büdcəsinin nəzarətlə əhatə olunmuş 6,2 milyard manat məbləğinin təqribən tən yarısı 2017-ci il, 21,1 faizi 2018-ci il üzrə xərcləri, qalan 28,2 faizi isə 2016-cı ilədək icra edilmiş vəsaitləri təşkil edib. 2018-ci ildə Hesablama Palatası ilk dəfə olaraq Dövlət Neft Fondunun büdcəsinin icrasına dair rəy hazırlayıb, Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə müəyyən edildiyi qaydada Fondun Müşahidə Şurasına təqdim edilib. Dövlət büdcəsindən maliyyələşən və xüsusi maliyyə yükünə malik olan on təşkilatın maliyyə hesabatı ətraflı təhlil olunub və təhlillərlə müəyyən edilmiş iradların aradan qaldırılması ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün həmin qurumlara göndərilib.

Maliyyə inzibatçılığı sahəsində mövcud olan xarakterik nöqsanların və təsiredici meyillərin müəyyən olunması məqsədilə hesabat ilində başa çatdırılmış 53 auditlə aşkarlanmış nöqsanlar təhlil edilib. Son illərdə tərəfimizdən normativ hüquqi aktların tələblərinə riayət edilməmə halları 8 istiqamət üzrə təsnifləşdirilir. 2018-ci ildə həmin istiqamətlər üzrə ümumilikdə 714 halda nöqsan müəyyən edilib. Bu, əvvəlki ilin göstəricisi ilə müqayisədə 3,6 faiz çoxdur. Lakin 2017-ci ildə auditlərin sayının hesabat ilinin göstəricisi ilə müqayisədə 8,2 faiz az olduğunu nəzərə alsaq, bir tədbirlə müəyyən edilmiş nöqsanların orta sayının azalma meyili olduğunu deyə bilərik. Bu, maliyyə idarəetmə strukturunda aparılmış siyasətin, maliyyə inzibatçılığının gücləndirilməsi istiqamətində atılan addımların, dövlət vəsaitlərinin istifadəsi sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi üzrə aktiv fəaliyyətin ilk nəticələridir. Müşahidə edilən meyillərdən biri də maliyyə və prosedur xarakterli pozuntular arasındakı nisbətin dəyişməsidir. Belə ki, prosedur pozuntularının maliyyə xarakterli pozuntulara nisbətən üstünlük təşkil etməsi qeyd edilməli müsbət meyillərdəndir.

Nəticələr üzrə aparılmış təhlillər göstərir ki, auditlə aşkar edilmiş nöqsanların orta göstəricisində kiçik də olsa azalma müşahidə olunsa da, ümumilikdə bu nöqsanlar arasında xüsusi çəkisi böyük olan istiqamətlər son illərdə dəyişməz qalıb. Belə ki, büdcə qanunvericiliyinin tələblərinə riayət edilməsi sahəsində, dövlət satınalmalarının keçirilməsində, həmçinin mühasibat uçotunun təşkili və hesabatlılığın təmin olunmasında müəyyən edilmiş nöqsanlara 2018-ci ildə də nisbətən daha çox rast gəlinib.

V.Gülməmmədov söyləyib ki, Ali Audit Qurumlarının Beynəlxalq Təşkilatı olan INTOSAI tərəfindən qəbul edilmiş Auditin Təməl Prinsipləri barədə Lima Bəyannaməsi fərdi hallarda təshihedici tədbirlərin həyata keçirilməsini, müvafiq işçilərin öz məsuliyyətini dərk etməsini, qanun pozuntularının aradan qaldırılmasını və ən azı məhdudlaşdırılmasını təmin etməyi dövlət auditi həyata keçirilən qurumlar qarşısında bir məqsəd olaraq təsbit edib. Bu baxımdan da Hesablama Palatasının qəbul etdiyi Kollegiya qərarlarında nöqsanların aradan qaldırılması istiqamətində tədbirlər də əks olunur.

Hesablama Palatası tərəfindən 2018-ci ildə aparılmış fəaliyyətin nəticəsi olaraq, yalnız manat ifadəsində dövlət büdcəsinə, qurumların hesabına və Dövlət Sosial Müdafiə Fondunun büdcəsinə ümumilikdə 23,2 milyon manatın bərpası təmin edilib. Bununla yanaşı, 5,5 milyon manat dəyərində malların alınması və işlərin görülməsi natural qaydada bərpa olunub və 922,5 min manat vergi məbləğinin dövlət müəssisəsinin dövlət büdcəsinə artıq ödəmələri hesabına əvəzləşdirilməsi təmin edilib. Əldə olunan nəticələrin müəyyən hissəsi dövlət vəsaitlərinin gələcək illərdə səmərəli və qənaətli istifadəsinə xidmət edəcək. Belə ki, artıq saxlanılmış ştatların ləğv edilməsi, artıq maliyyələşmə məbləğlərinin, həmçinin müqavilə məbləğlərinin azaldılması, lüzumsuz debitor borcların ləğv edilməsi bu istiqamətdə növbəti illərdə artıq xərclərin baş verməsinin qarşısını alıb.

Hesabat ilində əvvəlki illərdə Nazirlər Kabinetinə təqdim edilmiş təkliflər əsasında aktuallığını qoruyan və xüsusi əhəmiyyət kəsb edən 21 təklif yenidən təqdim olunub. Həmin təkliflərin 67,0 faizi qəbul edilərək müvafiq dəyişikliklər həyata keçirilib və ya normativ hüquqi aktların layihələri hazırlanıb. Hesabat ilində korrupsiya əleyhinə mübarizə istiqamətində müvafiq qurumlarla sıx əməkdaşlıq davam etdirilib. 2018-ci ildə aparılmış nəzarət tədbirlərindən 9-u üzrə müvafiq məlumatlar aidiyyəti hüquq-mühafizə orqanlarına göndərilib. Həmin tədbirlərdən 4-ü inzibati xəta xarakterli, 5-i isə cinayət xarakterli olub. Müzakirələrdən sonra hesabat deputatlar tərəfindən məqbul hesab olunub.

Sonra "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsinə baxılıb. Qanun layihəsi səsə qoyularaq təsdiq edilib.

Ailə Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verən əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli deyib ki, bu sənəd "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2018-ci il 30 oktyabr tarixli 1307-VQD nömrəli Qanunun tətbiqi ilə əlaqədar təqdim olunur. Qanun layihəsi səsvermə yolu ilə qəbul olunub.

Sonra Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb. Hər iki sənəd ayrı-ayrı səsverməyə qoyularaq qəbul edilib.

Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Fitosanitar nəzarəti haqqında" Qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. O deyib ki, nəzərdə tutulan dəyişikliklər fitosanitar nəzarəti və dövlət fitosanitar xidməti sahələrində fəaliyyət göstərən aidiyyəti dövlət orqanlarının səlahiyyət bölgüsünün dəqiqləşdirilməsini və qarşılıqlı əməkdaşlıq əlaqələri ilə bağlı məsələləri nəzərdə tutur. Belə ki, "Fitosanitar nəzarəti haqqında" Qanuna edilmiş dəyişikliyə əsasən, fitosanitar nəzarəti sahəsində səlahiyyətlər Qida Təhlükəsizliyi Agentliyinə, dövlət fitosanitar xidməti sahəsində səlahiyyətlər isə Kənd Təsərrüfatı Nazirliyinə həvalə olunur. Sənəd səsə qoyularaq qəbul edilib.

Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov Su, Meşə, Torpaq və Şəhərsalma və Tikinti məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirib ki, həmin məcəllələrə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) ilə bağlı müvafiq dəyişikliklər edilir. ƏMTQ-nin əsas məqsədi qeyd olunan qanunun əlavəsində göstərilən fəaliyyət həyata keçirilərkən ətraf mühitə və insan sağlamlığına mümkün mənfi təsirlərin aşkara çıxarılması, onların aradan qaldırılması və ya azaldılması üçün tədbirlərin görülməsidir. Bunun üçün həmin sahələrə dair strateji ekoloji qiymətləndirmə sənədinin hazırlanması və həmin sənədin dövlət ekoloji ekspertizasının keçirilməsi də layihələrdə əksini tapıb. İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyə də baxılıb. Bildirilib ki, ekoloji təhlükəsizlik haqqında qanunvericiliyin pozulduğu hallarda təqsirli olan şəxslərin məsuliyyət məsələsi həmin məcəllənin 275-ci maddəsinə edilən dəyişikliyə əsasən tənzimlənəcək. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq qəbul olunub.

Sonra Əmək, Vergi, İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələrinə baxılıb. Həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Lisenziya və icazələr haqqında", "Məktəbəqədər təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edilib. Bildirilib ki, təklif olunan bu dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır və qanunvericiliyin təkmilləşdirilməsinə və dəqiqləşdirilməsinə xidmət edir.

Bundan başqa, İnzibati Xətalar Məcəlləsində, Mülki, Vergi, Mənzil, Gömrük məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda nəzərdən keçirilib. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq təsdiq edilib.

Komitə sədri Ziyad Səmədzadə "Auditor xidməti haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Müflisləşmə və iflas haqqında", "Kiçik sahibkarlığa dövlət himayəsi haqqında", "Yeyinti məhsulları haqqında", "Notariat haqqında", "Kredit ittifaqları haqqında" və "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirilib ki, dəyişikliklər "Mühasibat uçotu haqqında" Qanunda dəyişiklik edilməsi barədə" 2018-ci il 4 may tarixli qanunun icrası məqsədi ilə hazırlanıb. Qanun layihəsinə görə, sahibkarlıq subyektləri mühasibat uçotunu aparmalı, maliyyə, habelə statistik hesabatlarını tərtib və təqdim etməlidirlər. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda, həmçinin "Kommersiya sirri haqqında", "Banklar haqqında", "Mühasibat uçotu haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli metallar və qiymətli daşlar haqqında", "İnformasiya əldə etmək haqqında", "Daxili audit haqqında" və "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri müzakirə edilib.

"Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda nəzərdən keçirilib. Bütün məsələlər ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib. Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

***Rəfiqə Kamalqızı***

# MİLLİ UĞURLARA İMZA ATAN LİDER



***Ölkələri idarə edən siyasi hakimiyyətlərdə təmsil olunan insanların şəxsi keyfiyyətləri, intellektual səviyyələri, insanları anlamaq və onların dərdlərinə şərik ola bilmə bacarığı mühüm əhəmiyyət kəsb edir. Bu, xüsusilə, o bölgələrdə əhəmiyyətlidir ki, həmin bölgələr dünyanın diqqət mərkəzindədir. Eləcə də, burada böyük güclərin maraqları toqquşur. Bu mürəkkəb reallıqlarda xalqını yüksək səviyyədə idarə etmək, onunla həmdərd olmaq, hər bir fərdin qarantı ola bilmək Azərbaycan Respublikası Prezidenti İlham Əliyevi üstün edən xüsusiyyətlərdəndir. Artıq bir ilə yaxındır ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin növbəti prezidentlik fəaliyyətinin nəticələri respublikamızın inkişafında özünü göstərir.***

Müsahibələrinin birində dövlət başçısı arxada qalan 2018-ci il haqqında mühüm bir dəyərləndirmə apararaq, söyləyirdi ki, 2018-ci il dünya üçün asan bir il deyildi. Lakin tarixi tərəfdaşlar, qonşular və dostları ilə əlaqələrin əhəmiyyətini dərk etmək və qiymətləndirmək üçün yaxşı bir vaxtdır. Buradan görünür ki, dövlət başçısının fəaliyyət strategiyasında keçən dövrü daim nəzarətdə saxlamaq, ondan nəticələr və gələcək fəaliyyət üçün əsaslar formalaşdırmaq qaydası daimidir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev pafos və papulizmdən uzaq, strateji baxış və analizin nəticəsində fəaliyyət göstərməyin bariz nümunəsidir. Çünki O, Ümummilli Lider Heydər Əliyev məktəbinin davamçısıdır. Ümummilli Lider Heydər Əliyev məktəbinin başlıca xüsusiyyəti isə konseptuallıqdır.

Ümumiyyətlə, keçən bir il Azərbaycan üçün uğurlu olmuşdur. Azərbaycan uğurla inkişaf etmiş, inkişafın göstəriciləri xalq təsərrüfatında, mədəniyyətdə, sosial münasibətlərdə, dini siyasətdə və bütün istiqamətlərdə özünü göstərmişdir. Beynəlxalq səviyyədə və qonşu ölkələrlə, respublikamızın tərəfdaşları ilə ənənəvi münasibətlər gücləndirilmişdir. Azərbaycan hər keçən gün özünün beynəlxalq nüfuznu artırmış, daxili struktur islahatlarının aparılması ilə dövlətin fəaliyyət mexanizmləri təkmilləşdirilmişdir. Bu da, ölkəmizə qarşı olan marağı artırmışdır. Bütün bunlar, təbii ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin davamlı, sistemli və dayanıqlı fəaliyyətinin uğurlu nəticələridir.

## Xəzər dənizinin hüquqi statusunun həlli ilə bağlı Konvensiya imzalanmışdır

Bu, Xəzəryanı ölkələri daha da yaxınlaşdıran bir tarixi sənəddir. Bəllidir ki, Xəzər regionu strateji bir regiondur. Burada mövcud olan dövlətlər regional və qlobal çəkiyə malikdir. Bölgədə qarşılıqlı münasibətlərin gərgin olmaması və məsələlərin daim danışıqlar masası arxasında nizamlanması olduqca böyük əhəmiyyətə malikdir. Bundan irəli gələrək, hesab etmək olar ki, son bir ildə ölkə başçısının xarici siyasətində Xəzər məsələsi prioritet əhəmiyyət kəsb etmiş, onun rəhbərliyi və nəzarəti respublikanın diplmatik aparatı məsələnin nizamlanma fəaliyyətinə səfərbər edilmişdir.

İkili formatda, 2018-ci il Azərbaycan üçün fəallığı ilə yadda qalmışdır. Bir çox ikitərəfli görüşlər keçirilmiş və beynəlxalq təşkilatların işində də fəallıq nümayiş etdirilmişdir. Azərbaycanın ikitərəfli münasibətlər sistemində ən önəmli müttəfiqi qardaş Türkiyədir. Münasibətlərin tarixi mahiyyəti ilə yanaşı, onların inkişafında şəxsiyyət amilinin də xüsusi rolu vardır. Ən yaxın tariximizdən biz bunu Ümummilli Lider Heydər Əliyevin və Türkiyənin mərhum dövlət başçısı Süleyman Dəmirəlin yüksək səviyyəli münasibətlərində görürük. Hal-hazırda isə, bunun bariz nümunəsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında qardaşlıq münasibətləridir. 2018-ci ildə Azərbaycan Türkiyənin ən böyük investoru kimi tarix səhnəsinə keçmişdir. İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan Türkiyənin İzmir şəhərində "Star" neft emalı zavodunun açılış mərasimində iştirak etmişlər. Burada çıxışında Azərbaycan Respublikasının dövlət başçısı İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana qardaşlıq duyğularını belə ifadə etmişdi: "Mən qeyd etməliyəm ki, bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla Bakıda ötən ay keçirilmiş möhtəşəm hərbi paradda iştirak etdik. Bu hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri çiyin-çiyinə Bakının ən böyük meydanı olan Azadlıq meydanından şərəflə keçmişlər. 1918-ci ilin 15 sentyabrı tarixi bir gündür. Məhz o gündə Bakı şəhəri Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu və yeni yaradılmış Azərbaycan Milli Ordusu tərəfindən işğaldan azad edilmişdir". Bunun müqabilində Rəcəb Tayyib Ərdoğan da ölkə başçımızın ünvanına aşağıdakı xoş sözləri söyləmişdi: "Bu hisslərlə "Star" neft emalı zavodunun açılışını hörmətli qardaşım İlham Əliyev ilə birlikdə etməkdən böyük qürur və məmnunluq duyduğumu bir daha ifadə etmək istəyirəm. "Star" neft emalı zavodu ölkələrimizə, xalqlarımıza və bölgəmizə "Xeyirli olsun!" deyirəm. Bu layihənin ölkəmizdə həyata keçirilməsində başda əziz qardaşım İlham Əliyevə və əməyi olan hər kəsə xüsusi təşəkkür edirəm, sizlərə sevgi və ehtiramımı çatdırıram. Sağ olun". Azərbaycan, eyni zamanda, regionun digər ölkələri ilə əlaqələrini yüksələn xəttlə inkişaf etdirməyə nail olmuşdur. Xüsusilə, Rusiya ilə münasibətlərin inkişafı bu ölkənin siyasi analitiklərinin diqqət mərkəzindədir. Rusiyanın tanınmış politoloqu Qriqori Trofimçuk Rusiya və Azərbaycan prezidentlərinin sentyabrın 1-də Soçidə keçirilmiş görüşünü əlamətdar hesab edir. O öz müsahibəsində vurğulayıbdır ki, bir çox ekspertlər iki prezident arasında keçirilmiş görüşü onilliyin ən mühüm görüşü hesab edirlər: "Bir çox cəhətdən bu fikirlə razıyam. Lakin mən onu, daha dəqiq olaraq, belə adlandırardım: əlamətdar görüş. Sadəcə, o səbəbdən ki, Rusiya və Azərbaycan arasında yüksək səviyyəli danışıqlar Ermənistanın anlaşılmaz davranışının artması fonunda keçdi". Beləliklə, görürük ki, Azərbaycanın xarici siyasəti Rusiyanın Qafqazda forpostu hesab edilən Ermənistanı pat vəziyyətində qoymuşdur. Azərbaycan Respublikası dövlət başçısı İlham Əliyevin xarici siyasi prioritetlərindən biri də İranla olan münasibətləri milli maraq dairəmizin tələbləri səviyyəsində saxlamaqdır. Ölkə başçısı İranla olan münasibələri həm regional, həm milli-tarixi istiqamətdə dəyərləndirmişdir. İranla münasibətlərinin mahiyyətindən söz açan Prezident İlham Əliyev İran prezidenti Ruhani ilə göreşlərinin birində aşağıdakı fikirləri səsləndirmişdir: "Bizim aramızda çox sıx əlaqələr mövcuddur. Bütün sahələr üzrə çox yaxşı əməkdaşlıq edirik. Həm siyasi, həm iqtisadi, mədəni, enerji, nəqliyyat - bütün sahələrdə yaxşı nəticələr var və bu gün imzalanacaq sənədlər əlaqələrimizin inkişafına yeni təkan verəcək. Bizim görüşlərimiz, müntəzəm olaraq, keçirilir. Görüşlər zamanı əldə edilmiş razılaşmalar, verdiyimiz tapşırıqlar yerinə yetirilir. Bunun nəticəsində bu gün İran-Azərbaycan əlaqələri ən yüksək zirvəyə çatmışdır". Azərbaycan bölgədəki digər tərəfdaşı Gürcüstanla da, bu bir il ərzində, özünün qarşılıqlı münasibətlərini inkişaf etdirmişdir. Gürcüstandakı erməni fitnəsindən qidalanan dairələrin cəhdlərinə baxmayaraq, ölkəmizə səfər etmiş bu ölkənin yeni prezidenti aşağıdakıları ifadə etmişdir: "Cənab Prezident, təşəkkür edirəm. Şadam ki, Azərbaycana gəlmişəm. Bu, mənim regionda birinci səfərimdir. Bizim qonşu və dost ölkə Azərbaycanda olmaqdan məmnunluq duyuram. Bizim əməkdaşlığımız bizim üçün çox əhəmiyyətlidir. İlk növbədə, bizi böyük tarix və ənənələr birləşdirir. Biz 100 il əvvəl birlikdə müasir dövlət qurmağa başladıq. Biz müstəqilliyimizi bərpa etdik. Vaxtilə bizim kiçik federasiyamız da var idi. Biz müstəqilliyimizi birlikdə itirdik, ağır illərdən keçdik, yaşadıq. Bunlar bizim dövlət quruculuğumuza təsir etdi. Biz öz müstəqilliyimizi yenidən birlikdə bərpa etdik. Biz son illər eyni faciələri yaşadıq. Bu gün də biz ölkə üçün ərazilərin işğalının nə demək olduğunu yaşayırıq. Ərazi bütövlüyü hələ bərpa olunmayıb. İşğal məsələsi bizim üçün hələ də açıq yara kimi qalır. Bu, bir tərəfdən bizim inkişafımıza mane olur, digər tərəfdən biz bunlara, bu faciələrə baxmayaraq, dövlətimizi, iqtisadiyyatı gücləndirməyə nail olduq. Bizim yolumuz müstəqillik yoludur və belə də davam edəcəyik. Bunlar böyük uğurlardır". Gürcüstan prezidentini səsləndirdiyi fikirlər Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin regional çəkisinin gürcü həmkarının dili ilə təsdiqidir. Bütün bunlar, onu deməyə əsas verir ki, son bir il ərzində, ölkə başçısının fəaliyyət istiqamətlərinin müəyyənedici amili milli maraqlarımızın təmin edilməsi olmuşdur.

Ardı Səh. 7

# MİLLİ UĞURLARA İMZA ATAN LİDER

Əvvəli Səh. 6

**2018-ci ildə Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin xarici işlər nazirləri səviyyəsində beynəlxalq forum keçirildi. Bu, bir daha onu deməyə əsas verir ki, Azərbaycan bölgədə militarizmin çiçəklənməsini və ölkələrin bloklara qoşularaq regionu çalxalamasını istəmir**

Daxili siyasi proseslər baxımından, ölkəmiz uğurla inkişaf etmişdir. Azərbaycan daxilində tənzimlənməsi üçün mexanizmnəzərdə tutulmayan potensial risklər yoxdur. Xarici potensial risklərə gəldikdə, ölkə başçısı tərəfindən aparılan siyasət onların qarşısının alınması istiqamətində bütün dövlət aparatı və mexanizmlərinin cəmləşdirilməsindən ibarətdir. Hər zaman olduğu kimi, dövlət başçısı iqtisadi islahatlara böyük əhəmiyyət vermiş və keçən bir il ərzində, bu sahədə çox əhəmiyyətli işlər görülmüşdür. Dünya Bankının Doing biznesinə görə, ölkəmizin reytinqi bu il 32 addım yüksəlmiş və dünyada 25-ci yeri tumuşdur. Yeni biznesin təsis edilməsinin asanlaşdırılması, şəffaflığın əsas meyar olaraq dövlət idarəçilində qəbul edilməsi, sahibkarlığın dəstəklənməsi baxımından, bu islahatlar, yaxşı nəticələr verdiyini göstərir. Bu, fəaliyyətlərin nəticəsi Azərbaycanın iqtisadi tərəfdaş olaraq, tərəfdaşları arasında, eləcə də, dünyada investisiya reytinqini artırır və bu il ölkəmizə 10 milyard dollar sərmayə cəlb edilmişdir. Dövlət başçısının apardığı iqtisadi siyasət və həyata keçirdiyi islahatlar investorların etimadını təmin edir və islahat siyasətini davam etdirmək üçün qətiyyətini nümayiş etdirir. Əhalinin gəlirləri 9 faizdən çox artıbdır ki, bu da, məhz həmin iqtisadi siyasətin nəticəsidir. Valyuta ehtiyatlarımızın artırılması dövlət başçısının fəaliyyətinin aparıcı sahələrindən olmuşdur. Valyuta ehtiyatlarımız xarici borcumuzdan təxminən 5 dəfə çoxdur. Yəni makroiqtisadi vəziyyət sabitdir. Bir çox sosial məsələlər həll edilmişdir. 6 min məcburi köçkün ailəsi 30 mindən çox adam yeni evlər və mənzillərlə təchiz edilibdir.

2019-cu ilin başlaması ilə sosial müdafiə sahəsində ciddi işlərə imza atıldı. Fevralın 8-də əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən “Minimum aylıq əməkhaqqının artırılması haqqında” Sərəncam imzaladı. Bu sənədə əsasən, bu il martın 1-dən minimum əməkhaqqı 38,5 faiz (50 manat) artırılaraq, 130 manatdan 180 manata yüksəldi. Bu da dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və özəl sektorda işləyən 600 min işçinin əməkhaqqının artması deməkdir. Onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım özünü göstərəcək. Minimum əməkhaqqının artırılması ilə bağlı dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu il üzrə isə (10 ay ərzində) 335 milyon manata qədər əlavə vəsait yönəldiləcək. Dövlət başçısı uzun müddətdir vətəndaşları narahat edən daha bir proses - problemli kreditlər və bu məsələnin həlli istiqamətində görülən işlərdən söz açmışdı. Müşavirədən 3 gün sonra isə dövlət başçısı fevralın 28-də “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” Fərman imzaladı. Problemli kreditlərin əhalinin xeyrinə həlli istiqamətində hazırlanan bu sənədə əsasən, narahatçılığa son qoyuldu.

Azərbaycanda məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi istiqamətində ciddi işlər görülmüşdür. Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkənin hüquq sistemində köklü islahatlar aparılmışdır. Azərbaycan xalqının milli, mədəni və tarixi ənənələrinə söykənərək, həqiqi demokratik cəmiyyət yaradılmasına xidmət edən bu islahatlar, ilk növbədə, insan hüquqlarının daha etibarlı təmin edilməsinə yönəlmişdir. Ölkənin 1995-ci ildə demokratik dəyərlər və prinsiplərə uyğun hazırlanmış və ümumxalq səsverməsi ilə qəbul edilmiş ilk demokratik konstitusiyasının müddəalarının üçdə biri insan hüquq və azadlıqlarına həsr edilmiş, hakimiyyət bölgüsü prinsipi təsbit edilmişdir. Beynəlxalq ekspertlər tərəfindən dünyanın demokratik konstitusiyalarından biri kimi qiymətləndirilən bu konstitusiya Azərbaycanda demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoymuş, hüquqi islahatların aparılmasına zəmin yaratmışdır. Prezident İlham Əliyev “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqda” Fərmanı məhkəmə sistemindəki islahatların məntiqi davamıdır.

Bu il ərzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində milli mövqeyimizin prinsipiallığından zərrə qədər də geri çəkilməmiş, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi istiqamətində səylərini davam etdirmişdir. Ermənistanın baş naziri ilə son görüşün nəticəsində, dövlət başçısı aşağıdakıları bildirmişdir: “Ermənistan tərəfinin cəhdləri nəticə vermədi, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı danışıqların formatı dəyişməz olaraq qalır. Bu danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb, aparılır və aparılmalıdır. İki ölkənin xarici işlər nazirlərinin iki görüşü bunu bir daha sübut edir. Son vaxtlar baş vermiş digər hadisələr, onu göstərir ki, danışıqlar formatı dəyişməz olaraq qalır və bu münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır”. Prezident qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt olmayacaq: “Ona görə biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi öz siyasətində konstruktivlik nümayiş etdirəcək və torpaqlarımız tezliklə işğalçılardan azad olunacaqdır”.

Beləliklə, ölkə başçısının fəaliyyətinin son bir ilinə diqqət yetirdikdə, bir yekun vurmaq olar, İlham Əliyev hər bir azərbaycanlının Prezidentidir. İlham Əliyev müasir dünyanın siyasətini və iqtisadiyyatını gözəl bilən yüksək intellektual, praktik düşünmə qabiliyyətinə malik olan enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Bu il müstəqilliyimizin daha da möhkəmləndirilməsi, sabit siyasi sistemin intensiv formalaşması və ölkədə iqtisadi strukturun daha da möhkəmləndirilməsi istiqamətində görülmüş işlərlə yadda qaldı. Bu müddət ərzində, respublikada demokratikləşmə prosesləri genişlənmişdir, ölkənin qlobal transformasiya proseslərinə inteqrasiyası daha da güclənmişdir, milli iqtisadiyyatın gələcək inkişafı üçün sosial-siyasi əsas gücləndirilmişdir. Heydər Əliyevin siyasi məktəbinin layiqli davamçısı olan İlham Əliyevin böyük siyasətdə atdığı addımlar sayəsində Azərbaycanda yalnız sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai qurumlarda əsaslı yeniliklər olmuşdur, effektiv islahatlar aparılmışdır.

*Dosent Bəxtiyar Nəbiyev,*
*YAP Yasamal rayon təşkilatının gənclər birliyinin sədri*
*Bakı Dövlət Universitetinin Tarix fakültəsinin dekan müavini*

## “Xalqımız Prezidentin son bir ildəki fəaliyyətini yüksək qiymətləndirir”

***“Fransanın nüfuzlu “Opinion Way” sorğu mərkəzi fevral və mart aylarında Azərbaycanda mövcud ictimai-siyasi vəziyyət, Prezident İlham Əliyevin son bir ildə həyata keçirdiyi islahatlar, hökumətin ümumi, daxili və xarici siyasətinə ölkə əhalisinin münasibətini öyrənmək məqsədilə geniş rəy sorğusu keçirib.***



Bütün sorğu istiqamətləri üzrə Azərbaycan Prezidentinin fəaliyyəti sorğuda iştirak edən respondentlər tərəfindən yüksək qiymətləndirilib və əsas məsələlərdə rəy bildirənlər ölkə başçısının fəaliyyətini təqribən 90 faiz ətrafında müsbət qiymətləndirib”. Bunu SİA-ya açıqlamasında “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, bu hər şeydən öncə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət və bu siyasətin mərkəzində Azərbaycan vətəndaşının mənafeyinin dayanması ilə bağlıdır: “Əslinə cəiyyətimizi sosioloji kontekstdə müşahidə etməyi və ictimai nəbzi tutmağı bacaranlar üçün rəy sorğusunun nəticələri gözlənilən idi. Bu kontekstdə önə çıxan başlıca məsələlərdən biri isə Prezident İlham Əliyev tərəfindən ölkəmizdəki ictimai-siyasi sabitliyin qorunması ilə bağlı respondentlərin qiymətləndirməsidir. Burada rəyi soruşulanların 90 faizdən çoxu sabitliyin qorunmasını yüksək qiymətləndirdiklərini bildirirlər. Bu cür yanaşma sıravi Azərbaycanlının strateji düşünmə bacarığının olmasından xəbər verir. Yəni respondent bilir ki, ictimai - siyasi sabitlik olmadan nə sosial, nə də iqtisadi problemləri həll etmək mümkün deyil.

İkinci mühüm məsələ regionların inkişafının təmin olunmasının yüksək qiymətləndirilməsidir. Burada da müsbət rəy 90 faiz ətrafındadır. Doğurdan da regionlarımızın inkişafı daima Azərbaycan Prezidentinin diqqət mərkəzində olub və bunun üçün 2004-cü ildən başlayaraq ardıcıl dövlət proqramları həyata keçirilib. Nəticə isə göz qabağındadır. Abad yollar, qaz və elektrik enerjisi ilə təhcizat, sosial obyektlərin və idman qurğularının tikilməsi, regional sağlamlıq mərkəzlərinin yaradılması, iş yerlərinin açılması və s. Buna paralel olaraq regionların iqtisadi zonalara bölünərək hər iqtisadi zonanın xarakterinə uyğun modern iqtisadiyyatın qurulması kimi işlər yeni reallıqlar formalaşdırıb. Bütün bunlar hazırki regionlarımızın real mənzərəsini təşkil edir və vətəndaşlarımız tərəfindən yüksək qiymətədirilir. Heç şübhəsiz ki, sosial sahədə inqilabi islahatların aparılması da respondentlərin diqqətindən kənarda qalmayıb və növbəti yüksək rəy alan blokda öz əksini tapıb. Şəhid ailələrinə birdəfəlik müvinətlərin verilməsi, təqaüdlərin artırılması, Qarabağ veteranlarına əlavə ödənişin müəyyən edilməsi, minimum əmək haqqlarının orta aylıq əməkhaqlarına yaxınlaşdırılması, problemli kreditlərin həll olunması və digər bu kimi işlər vətəndaşlarımızın müsbət rəy ifadə etməsini təmin edibdir. Eyni zamanda idarəetmədə aparılan islahatlar, xarici siyasət, ordu quruculuğu işlərindəki böyük uğurlar da respondentlər tərəfindən yüksək qiymətləndirilib. Nəticədə isə aydın olub ki, ötən bir ildə görülən işlər əslində 15+1 formulası kontekstində qiymətləndirilib və Azərbaycan cəmiyyətinin ictimai yaddaşı kifayət qədər dərin və məntiqlidir. Əgər 15 il öncə həyata keçirilən işlər olmasaydı, hazırda son bir ildə bu qədər böyük işlər görmək də olmazdı”.

*Ceyhun Rasimoğlu*

## “İlham Əliyevin rəhbərliyi Azərbaycan üçün həmişə uğur vəd edir”

***“Azərbaycanın 1 ildə dövlət büdcəsinin artımı 2.8 milyard dollardır. Qonşu işğalçı Ermənistanın illik büdcəsi 2.8 milyard dollardır. Yəni Azərbaycanın sosial iqtisadi inkişafı cənab Prezidentin apardığı siyasətin ana xəttidir”. Bunu Milli Məclisin deputatı Aydın Mirzəzadə Parlamentin dünən keçirilən plenar iclasında çıxış edərkən deyib.***

O bildirib ki, bu gün Azərbaycanda bütün sahələrdə inkişaf görə bilərik. Regionların sosial iqtisadi inkişafı ilə bağlı III Dövlət Proqramı yerinə yetirilib, IV Dövlət Proqram yüksək göstəricilərlə qəbul edilib. Deputat deyib ki, Azərbaycanın xarici siyasətlə bağlı uğurları göz qarşısındadır: “Avropa Parlamenti, Avropa Birliyinin rəsmiləri Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi ilə bağlı öz bəyanatlarını verdilər. Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyi kifayət qədər güclənib. Azərbaycanın principal mövqeyi Ermənistan tərəfindən də qəbul olunur. Onların səylərinə baxmayaraq, danışıqlar Azərbaycan və Ermənistan arasında aparılacaq”.

A.Mirzəzadə söyləyib ki, bu ildən başlayaraq, həm müxtəlif struktur islahatlarının keçirilməsi, eyni zamanda əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı bir-birinin ardınca çox möhtəşəm proqramların qəbul edilməsi, cənab Prezidentin dövlət başçısı, lider kimi vəzifəsinin öhdəsindən layiqincə gəldiyini göstərir: “Bu günlərdə Azərbaycanın 10 milyonuncu sakininin anadan olması eyni zamanda ölkəmizin sosial inkişafının vətəndaşlarımızın öz ölkəsinə bağlılığını göstərir. Bir illik yubiley münsaibətilə cənab Prezidenti təbrik edir, Ona uğurlar arzu edir və bildirirəm ki, Onun rəhbərliyi Azərbaycan üçün həmişə uğur vəd edir”.

*Nailə Məhərrəmova*

# Azərbaycan tarixinin mühüm və əhəmiyyətli dövrü: 15+1

***Bu gün, birmənalı tərzdə demək olara ki, aparılan uğurlu və mütərəqqi siyasət nəticəsində, Azərbaycanda bütün sahələrdə mühüm nailiyyətlər əldə olunub. Dahi Öndəri, Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi sayəsində, yüksək iqtisadi göstəricilərin əldə olunması ilə yanaşı, həm də qlobal transmilli enerji və nəqliyyat-kommunikasiya layihələrinin reallaşmasına, balanslaşdırılmış daxili və xarici siyasətin həyata keçirilməsinə nail olunub. Söhbət etdiyimiz müsahiblərimiz 15+1-in Azərbaycan tarixinin mühüm və əhəmiyyətli dövrü olduğunu bildiriblər.***

### Nəriman Əliyev, millət vəkili:



- Azərbaycanın yeni əsrdə yeni Lideri olan Cənab İlham Əliyevin prezident seçilməsindən 16 il ötür. 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində seçicilərin 76,8 faiz səsini toplayaraq, Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev xeyirli, gərəkli siyasəti ilə Azərbaycanı misilsiz inkişaf yoluna çıxarmağa nail olub. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin layiqli davamçısı olan Prezident İlham Əliyev uzaqgörən siyasəti, düşünülmüş islahatları və müdrik qərarları ilə Azərbaycanın beynəlxalq miqyasda mövqelərini daha da möhkəmləndirib. Dövlətimizin başçısının ölkəyə rəhbərlik etdiyi illərdə minimum aylıq əməkhaqqının məbləği 14,4 dəfə, orta aylıq əməkhaqqının məbləği 6,8 dəfə, əmək pensiyasının orta aylıq məbləği 11,3 dəfə artıb. Ötən 16 ildə, ardıcıl olaraq, həyata keçirilmiş tədbirlər, icra edilən proqramlar sayəsində əhalinin aztəminatlı təbəqəsinin ümumi əhali nisbətində xüsusi çəkisi azalıb, yoxsulluq 49 faizdən 5 faizə düşüb. Hələ 1994-cü ildən ölkəmizdə gedən ən mühüm iqtisadi və ictimai-siyasi proseslərdə yaxından iştirak edən Cənab İlham Əliyev neft və qaz, idman sahələrində, eyni zamanda, parlamentdə, Avropa Şurasında və Baş nazir kimi fəaliyyəti dövrlərində hər zaman Ulu Öndər Heydər Əliyev siyasətinə sadiqliyini nümayiş etdirmiş, xalqın böyük rəğbətini və dəstəyini qazanmışdı. 16 illik Prezidentliyi dövründə Cənab İlham Əliyev xalqın etimadını əməli fəaliyyəti, xeyirli, gərəkli işləri ilə doğruldub. Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində, orta aylıq əməkhaqqı 7, minimum əməkhaqqı isə 6,5 dəfə artıb. Təbii ki, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqəsinin, şəhid ailələrinin, əlillərin, qaçqın və məcburi köçkünlərin problemləri daim diqqət mərkəzində saxlanılıb. Prezident İlham Əliyevin, ötən il keçirilən prezident seçkilərində qələbə qazandıqdan sonra, imzaladığı ilk Fərmanın şəhid hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmələrin verilməsi haqqında olması deyilənlərin əyani sübutudur. Ölkə başçısının 2018-ci il 19 aprel tarixli 1 nömrəli Fərmanına əsasən, şəhid hərbi qulluqçuların vərəsələri birdəfəlik ödəmələrlə təmin edilir. İlk olaraq, 9531 şəhid hərbi qulluqçunun vərəsələrinin birdəfəlik ödəmə almaq hüququ müəyyən olunub. Yanvarın 28-də ölkə başçısının imzaladığı daha bir Fərmanla birdəfəlik ödəmələrin verilməsi 2725 nəfər çox olmaqla, 12 min 268 şəhidin vərəsələrini əhatə edib, bu məqsəd üçün, ümumilikdə, 135 milyon manat vəsait ayrılıb. Onlardan 3 min 758 şəhid üzrə 5 min 144 vərəsəyə həmin ödənişlər verilib. Onu da vurğulamaq lazımdır ki, bütün şəhid vərəsələrinə birdəfəlik ödənişlərin verilməsi prosesi bu il ərzində başa çatdırılacaq. Bütün bu nailiyyətlərlə yanaşı, məcburi köçkünlər üçün, son illər ərzində, yüzdən çox şəhərcik və qəsəbə tikilib. Təkcə keçən il 5800 məcburi köçkünə mənzillər və fərdi evlər verilib. Bu günə qədər isə 300 min məcburi köçkün yeni evlərlə təmin edilib. Bir sözlə, Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi uğurlar, onu deməyə əsas verir ki, uğurlar sosial siyasətin genişlənməsinə yeni imkanlar yaradır. Bütün bunlar ölkə əhalisinin sosial vəziyyətlərinin yaxşılaşmasına və özlərini güvənli hiss etmələrində daha geniş imkanlar yaradır.

### Mehdi Balabəyov, YAP Şabran rayon təşkilatının sədri:



- Tam qətiyyətlə və əminliklə demək olar ki, Azərbaycanın həm daxili, həm də beynəlxalq mövqelərinin güclənməsi, sosial-iqtisadi uğurlara nail olması Prezident İlham Əliyevin adı ilə bağlıdır. Qısaca onu demək olar ki, Cənab İlham Əliyevin 16 illik Prezidentlik dövrü millətimiz üçün uğurlu olub. Dövlət başçısının Azərbaycana rəhbərlik etdiyi 2003-2019-cu illər tariximizə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olub. Bu dövrdə ümumi daxili məhsul 3,2 dəfə, büdcə gəlirləri 13,5 dəfə artıb. Ölkənin strateji valyuta ehtiyatları 26,6 dəfə artmış, maliyyə imkanlarımız əsaslı şəkildə yaxşılaşmışdır. Müqayisə edilən illərdə xarici ticarət dövriyyəsi 4,6 dəfə, ixracın həcmi 6 dəfə artıb. Regionlarda ümumi məhsul buraxılışının artımı 3,6 dəfəyə bərabər olub. Əldə olunan nailiyyətlər, ölkədə sistemli şəkildə həyata keçirilən islahatlar nəticəsində, iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, kiçik və orta sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi sayəsində mümkün olub. Əhalinin nominal gəlirləri 8,6 dəfə, minimum əməkhaqqı 12,9 dəfə, xaricə səfər edən vətəndaşların sayı 2,2 dəfə, əhalinin banklardakı əmanəti 30 dəfə artıb. Hər 100 ailəyə 53 avtomobil düşür, 1958 400 yeni iş yeri açılıb, 326,6 min nəfərə ünvanlı dövlət sosial yardımı verilib. İşsizliyin səviyyəsi 9,2 faizdən 5 faizə, yoxsulluğun səviyyəsi 44,7 faizdən 5,4 faizə enmiş, 245 min nəfər məcburi köçkün mənzillə təmin olunmuşdur. Qarabağ müharibəsi əlilləri və veteranları, şəhid ailələri, tərxis olunmuş hərbçilərin sosial-məişət problemlərinin həll edilməsi istiqamətində mühüm addımlar atılıb, sərəncamlar imzalanıb. Qarabağ müharibəsi iştirakçılarının, əlilərinin və şəhid ailələrinin mənzillərlə təmin edilməsi üçün 75 milyon manat vəsait ayrılıb. Ötən il 626 ailə mənzillə təmin edilib, bu il daha 800-dən artıq ailə mənzillərə sahib olacaq. Həmin təbəqədən olanlara ötən il 250 avtomobil verilib, bu il daha 170-180 nəfər avtomobillə təmin ediləcək. I, II və III qrup Qarabağ və Çernobıl əlilləri, müvafiq olaraq, hər ay 182, 158 və 121 manat məbləğində müavinət alırlar. Milli qəhrəmanlara verilən müavinətlər 1500 manata çatdırılıb, onların övladlarının ödənişsiz təhsil almaq hüququ var. Bir sözlə, dövlətimizin başçısı İlham Əliyevin 16 illik Prezidentlik fəaliyyətinin əsas qayəsində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi hər vasitə ilə möhkəmləndirmək dayanır. Həm də, Azərbaycanın bütün sahələrdə qazandığı bu misilsiz uğurlar Dahi Öndərimiz Heydər Əliyev siyasətinin təntənəsidir.

Bütün bunlar hamısı, məhz İlham Əliyev Cənablarının hər zaman olduğu kimi, sözü ilə əməlinin tam üst-üstə düşməsinin reallığıdır. Ölkə Parezidenti İlham Əliyev Cənablarının dediyi kimi: "Hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə haqlı olaraq fəxr edə bilər".

**RƏFİQƏ KAMALQIZI**

# "Opinion Way"in keçirdiyi sorğunun nəticələri Azərbaycan reallığının göstəricisidir"

***"Fransanın "Opinion Way" şirkəti tərəfindən aparılan sorğunun nəticələri Azərbaycan reallığının göstəricisidir. Sorğu bir daha təsdiqlədi ki, Azərbaycan vətəndaşı, seçicilər Prezident İlham Əliyevin yanındadır və ölkə başçısına etimad yüksək səviyyədədir". Bu fikirləri SİA-ya açıqlamasında "Səs" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.***



Siyasi ekspert bildirib ki, təkcə Azərbaycanda deyil, eləcə də bütün dünyada Liderin reytinqinin yüksək olmasını şərtləndirən əsas amil onun xalqla birliyidir. Ötən il keçirilən prezident seçkilərinin yeni institusional islahatlar üçün impuls olduğunu dilə gətirən siyasi ekspert söyləyib ki, bu müddət ərzində dövlət başçısı tərəfindən xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb, Prezident xüsusilə də vətəndaşlarla birbaşa təmasa girərək, onların problemlərini öz dillərindən eşidib: "Ekspertlər də bildirirlər ki, əgər hər bir vətəndaşın Prezidenti ilə xəyalı söhbəti reallaşırsa, bu, həmin ölkədə Liderlə vətəndaş arasında istəyin, hörmətin göstəricisinə çevrilir. Bu baxımdan görülən işləri, atılan addımları ölkədaxili vəziyyəti və Azərbaycan Prezidentinin fəaliyyətini yüksək qiymətləndirməyi təmin edən amillər hesab etmək mümkündür".

B.Quliyev qeyd edib ki, ölkə başçısının 15 illik fəaliyyətinin məntiqi nəticəsi olan, son 1 il müddətində davam etdirilən siyasət sayəsində Azərbaycanda sosial, iqtisadi, mədəni inkişafla yanaşı, sabitlik, təhlükəsizlik də tam təmin olunub: "Prezident İlham Əliyev tərəfindən 15 ildə həyata keçirilən siyasət son 1 ildə daha fərqli şəkildə diqqəti cəlb edir. Bildiyiniz kimi, bu gün Azərbaycan həm sosial, həm siyasi, həm də iqtisadi cəhətdən dünyaya inkişafın yeni modelini nümayiş etdirir. Son 1 ildə Azərbaycan Prezidenti bütün bunlarla yanaşı, liderin vətəndaşlara olan münasibətinin də yeni modelini ortaya qoymuş oldu. Belə ki, dövlət başçısının müxtəlif görüşlərdə, tədbirlər çərçivəsində, baş verən hadisələr zamanı vətəndaşların yanında olması, onların problemlərinin həllinə operativ şəkildə reaksiya verməsi, problemləri onların öz dillərindən öyrənməsi artıq bütün dünya üçün yeni model, təcrübədir".

Baş redaktor vurğulayıb ki, "Opinion Way" kimi müstəqil bir şirkət tərəfindən həyata keçirilən sorğuda respondentlərə təqdim olunan bütün suallara verilən cavablarda dövlət başçısına göstərilən yüksək etimad bir daha sübut edir ki, Azərbaycan vətəndaşı ölkə rəhbərini, həyata keçirilən siyasəti dəstəkləyir: "Məhz elə bunun nəticəsidir ki, "Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz?" sualına respondentlərin 85,1 faizi, "Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz?" sualına 90,5 faizi, seçkiqabağı vədlərinin yerinə yetirilməsinin qiymətləndirilməsinə dair suala 75,6 faizi, kadr islahatları ilə bağlı suala 78,8 faiz müsbət cavab verilib. Bununla yanaşı, "Regionların sosial-iqtisadi inkişaf proqramı" və hökumətin bölgələrdə həyata keçirdiyi fəaliyyət nəticəsində sizcə regionlar inkişaf edibmi?" sualına respondentlərin 93,1 faizi "hə" cavabı verib, 72,3 faizi hökumətin bu istiqamətdəki fəaliyyətini tam müsbət, 20,8 faizi "əsasən müsbət" kimi dəyərləndirib. Prezidentin bölgələrə çoxsaylı səfərlərinin faydalılıq əmsalı respondentlərin 90,4 faizi tərəfindən müsbət dəyərləndirilib, 48,9 faiz bu səfərləri "çox yüksək", 27,5 faiz "əsasən yüksək", 14 faiz isə "qismən yüksək" kimi qiymətləndirib. Sorğunun Prezident İlham Əliyevin xarici siyasəti ilə bağlı nəticələri də əhalinin müsbət mövqeyini ifadə edib. Ümumilikdə götürsək, sorğuda iştirak edənlərin 89,9 faizi bu sualı müsbət cavablandırıb, onların 73,9 faizi suala "əla" kimi münasibət bildirib. Ümumilikdə sorğu Azərbaycanda həyata keçirilən siyasətin düzgün olduğunu, xalq-lider birliyini bir daha təsdiq etmiş olur".

# Nazirlik: 778 min manat maddi yardım 89 zərər çəkmiş sahibkarın bank hesabına köçürülüb

AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ

***Yanğından zərər çəkmiş sahibkarlara maddi yardımın ödənilməsi prosesi davam edir.***

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, indiyədək 219 sahibkarın maddi yardımla bağlı ərizəsi qəbul edilib və İşçi Qrupu tərəfindən 161 sahibkara 1 milyon 146 min manat ödənilməsi qərara alınıb. Artıq 778 min manat məbləğində maddi yardım 89 zərər çəkmiş sahibkarın bank hesabına köçürülüb.

Qeyd edək ki, ödənişlər "Kapital Bank" və "TuranBank" vasitəsilə həyata keçirilir. Vəsaitlər sahibkarlara bank kartları vasitəsilə nağdsız şəkildə verilir və banklar tərəfindən maddi yardımdan xidmət haqqı tutulmur.

Zərər çəkmiş sahibkarlardan sənədlərin qəbulu və maddi yardımın ödənilməsi prosesi davam edir.



# “Güclü Lider - güclü Azərbaycan”

***2018-ci ilin 11 aprelində keçirilmiş prezident seçkilərindən bizi bir il ayırır. Bu bir ildə Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi altında görülmüş işlər barədə danışmaq nə qədər xoş olsa da, həm də məsuliyyətli, eyni zamanda, zəruri və vacibdir. 2018-ci ildə ölkəmizdə keçirilən prezident seçkilərində seçicilərin mütləq səs çoxluğu - 86,02% hesab ilə Cənab İlham Əliyev möhtəşəm qələbə qazandı. Əslində, bu səslər, ilk növbədə, Ümummilli Liderimiz Heydər Əliyevin strateji xəttinin davamına verilən səslər idi. Bu qələbə həm də 2003-cü ildən 2018-ci ilədək Cənab Prezident İlham Əliyevin Prezidentlik dövründə gördüyü irimiqyaslı işlərə, ölkənin iqtisadi qüdrətinin və onun beynəlxalq nüfuzunun artırılmasına, əhalinin rifah halının yaxşılaşdırılmasına verilən dəyər idi. Bu siyasət ötən bir ildə də davam etmişdi. Cənab Prezidentimiz, partiyamızın Sədri İlham Əliyev 2018-ci il fevralın 8-də keçirilən Yeni Azərbaycan Partiyasının VI Qurultayındakı çıxışında deyirdi: “2003-cü ildə prezident seçkiləri ərəfəsində, bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəm. Şadam ki, Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşir və ölkəmiz uğurla inkişaf edir”.***

Qurultaydakı tarixi çıxışında Cənab Prezident son 15 ildə əldə edilən uğurlardan daha çox gələcək planlardan danışmışdı. O, qeyd etmişdi: “Mən dəfələrlə demişəm və bir də demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları, onun rifahı dayanır”. Cənab Prezident ölkədə aparılacaq siyasi və iqtisadi islahatların anonsunu hələ VI Qurultayda vermişdi. Xarici siyasətdə yaxın qonşularla birgə layihələrin həyata keçirilməsi və həmin ölkələrlə münasibətlərdə yeni yanaşma, Avropa və Avropa İttifaqı ölkələri ilə münasibətlər, Aİ ilə yeni sazişin işlənməsi, islam ölkələri ilə əməkdaşlığın daim inkişafı, beynəlxalq və regional təşkilatlarda layiqli konstuktiv və müstəqil mövqe Cənab Prezidentimizin qarşıdakı Prezidentlik müddətinin prioritetləri idi.



***RAMİZ GÖYÜŞÖV,***
***YAP Binəqədi rayon təşkilatının sərdi***

Cənab İlham Əliyev, hər zaman bəyan etmişdir ki, güclü olmaq, dünyada söz sahibi olmaq üçün iqtisadiyyatımız güclü olmalıdır.

## XALQ VƏ DÖVLƏT NAMİNƏ: BÜTÜN İSTİQAMƏTLƏRDƏ MÖHTƏŞƏM UĞURLAR

2015-ci il neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar, bütün dünyada böhran yarandı. Bu böhran bizdən də yan keçmədi. O zaman Cənab Prezident böhrandan çıxmağın yollarını işləyib-hazırladı. 2017-ci ildə iqtisadi sabitliklə bağlı çox önəmli addımlar atıldı. 2018-ci ildə isə ölkəmizdə ciddi islahatlar aparıldı. Ölkəmizdə makroiqtisadi vəziyyət sabitdir, manatın məzənnəsi uzun müddətdir ki, sabit qalıb və infilasiya yox səviyyəsindədir. Qeyri-neft sektoru və sahibkarlıq inkişaf edir. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır. Dünyanın aparıcı maliyyə qurumları Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı ilə səmərəli əməkdaşlıq edir. Ölkəmizin iqtisadiyyatına böyük məbləğdə investisiyalar qoyulur. Yanvar ayında regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramına yekun vuruldu, dördüncü Dövlət Proqramı qəbul edildi. Üçüncü Dövlət Proqramı artıqlaması ilə icra edilmiş, qarşıya qoyulan bütün vəzifələr uğurla icra olunmuşdur. Son 5 il ərzində, xüsusilə, bölgələrdə və Bakı şəhərində böyük infrastruktur layihələri icra edilmişdir. Aparılan ciddi iqtisadi islahatlar, şəffaflıqla bağlı görülən işlər, büdcə daxilolmalarına da müsbət təsir göstərmişdir. Təkcə ilin birinci ayında daxilolmalar xeyli artmışdır. Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı keçirilən müşavirədə, dövlət başçısı qeyd etmişdir ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır.

## YENİ TƏŞƏBBÜSLƏR: NÖVBƏTİ MƏRHƏLƏYƏ DOĞRU

Bildiyimiz kimi, 2018-ci ilin prezident seçkilərindən sonra Prezidentin ilk Fərmanı şəhidlərin vərəsələrinə veriləcək 11 min manat vəsait ödənişlə bağlı idi. Budur, Cənab Prezidentin sözü ilə işinin vəhdəti. Hazırda 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödəniş edilir və bu ilin sonuna qədər bu proqram tam icra olunacaqdır. Buna paralel olaraq, şəhid ailələrinə verilən müavinətlər 242 manatdan 300 manata, Əfqanıstanda həlak olanların ailələrinə verilən müavinətlər 220 manatdan 300 manata qaldırılmışdır. Məcburi köçkünlərlə bağlı bu il bir çox proqramlar icra edilir. Bu il 7 minə qədər köçkün ailəsi yeni mənzillərlə, evlərlə, 800-ə qədər şəhid ailəsi mənzillə təmin ediləcəkdir.

Cənab Prezidentimiz tərəfindən minumum əməkhaqqları və minumum pensiyalarla bağlı çox ciddi qərarlar qəbul edildi. Minimum əmək haqqları 130 manatdan 180 manata, minumum pensiyaların məbləği isə 116 manatdan 160 manata qədər artırılmışdır və bu artımlar təxminən 823 min insanın təminatını yaxşılaşdıracaqdır. Uzun illər ərzində, vətəndaşları narahat edən problemlərdən biri də vaxtilə tikilmiş və hansısa səbəblərə görə, rəsmi olaraq, qəbul edilməmiş çoxmənzilli binaların sənədləşməsi məsələsi idi. Cənab İlham Əliyevin imzaladığı bir Fərmanla bu problem də həllini tapdı. Fərmanın tətbiqi dörd yüz çoxmənzilli binada yaşayan təxminən 60 minə yaxın ailənin problemlərini həll edəcəkdir. Təqribən 100 minə yaxın tələbənin təqaüdü artırılmış və Prezidentimizin bu addımı tələbələrdə böyük ruh yüksəkliyi yaratmaqla, həm də onlar arasında motivasiyanı gücləndirmişdir.

Uzun illər idi ki, vətəndaşlarımızı narahat edən məsələlərdən biri də problemli kreditlərlə bağlı idi. Bununla bağlı Cənab Prezidentin verdiyi qərar dünyada bəlkə də analoqu olmayan tarixi bir hadisədir. Bu Fərman 800 mindən çox ailənin əhatə edəcəkdir ki, bu da, təxminən 1,5 milyard manatdan çox vəsait deməkdir.

## AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ SABİTLİYİN TƏMİNATÇISI XALQLA ONUN PREZİDENTİNİN BİRLİYİDİR

Ölkə Prezidentinin təkcə bu ilin üç ayında iqtisadiyyatımızın güclənməsinə və əhalinin rifah halının yaxşılaşmasına yönəlmiş fərman və sərəncamları haqqında danışmaq üçün bu kiçik yazı azlıq edər. Eyni zamanda, Cənab Prezident son vaxtlar keçirdiyi görüş və tədbirlərdə dəfələrlə qeyd etmişdir ki, əhalinin sosial müdafiəsinə yönəlmiş bu təşəbbüslər son deyil və iqtisadiyyatımız artdıqca, bu təşəbbüslər də çox olacaqdır.

Çox təəssüflə qeyd etməyi lazım bilirəm ki, Azərbaycanın bu uğurlarını qəbul etmək istəməyən, gözü götürməyən və xarici havadarlarından dəstək alan anti-Azərbaycan şəbəkəsi, antimilli qüvvələri ölkədə mövcud olan ictimai-siyasi sabitliyi pozmağa yönəlmiş cəhdlər edir. Ölkə Prezidentinin bu sosial təşəbbüsünə şərik çıxmağa çalışır və iddialar edirlər ki, guya 19 yanvar mitinqləri olmasaydı, bu addımlar atılmayacaqdı. Lakin onlar və havadarları yaxşı bilirlər ki, onların niyyətləri baş tutmayacaqdır. Xalq öz Prezidentini yaxşı tanıyır, Ona güvənir və öz taleyini Ona etibar edir. İndi 1990-cı illər deyil və özünü müxalifət adlandıran antimilli qüvvələrin arzuları gözündə qalacaqdır. Azərbaycanda ictimai-siyasi sabitliyin təminatçısı xalqla Prezidentinin birliyidir və heç bir qüvvə bu birliyi sarsıda bilməz.

# “Prezident seçicilərin etimadını artıqlaması ilə doğrultdu”

“Fransanın rəy sorğuları keçirmək üzrə nüfuzlu “Opinion Way” şirkətinin həyata keçirdiyi növbəti sorğuda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək mövqedə yer alması ölkə başçımızın həyata keçirdiyi siyasətin vətəndaşlarımız tərəfindən yüksək qiymətləndirilməsinin nəticəsidir. 5 əsas məqamı özündə əks etdirən sorğunun göstəriciləri birmənalı olaraq ölkə rəhbərimizə respondentlərin inamını rəqəmlərlə ifadə edir”. Bunu SİA-ya açıqlamasında Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov deyib.

Sədrin sözlərinə görə, Azərbaycan vətəndaşlarının öz prezidentlərinə olan inamının əsasında dövlət başçısının həyata keçirdiyi siyasətin dövlət və milli maraqlara cavab verməsi, reallaşdırdığı islahatların hədəfində Azərbaycan insanının mənafelərini üstün tutması əhəmiyyətli faktor kimi qeyd olunmalıdır və əslində sorğunun nəticələrində təəccüblü məqamlar da yoxdur: “Azərbaycanda həyata keçirilən müsbət dəyişikliklər hər bir azərbaycanlı gündəlik həyatında hiss edir və insanlarımız haqqlı olaraq bu dəyişikliklərin müəllifi olaraq prezidenti görürlər. Təsadüfi deyil ki, bir il öncə ölkədə keçirilən seçkilərdə xalq öz iradəsinin ifadəsi olaraq liderini müəyyən etdi. Bir il ərzində həyata keçirilən islahatlar, görülən işlər, sosial layihələr, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması istiqamətində qəbul edilən qərarlar, təqaüdlərin, müavinətlərin, əmək haqqlarının artırılması, əhalinin daha həssas təbəqəsini əhatə edən proqramlar birmənalı olaraq insanlar tərəfindən yüksək qiymətləndirilir və onlarda doğru seçimlərinə bir daha əminlik yaradır. Azərbaycan regionlarının inkişafına yönəlmiş konkret dövrləri əhatə edən mərhələli dövlət proqramları ilə ən ucqar rayonların siması dəyişmiş, heç vaxt yol olmayan ucqar kəndlərə müasir və yüksək keyfiyyətli yollar çəkilmiş, ən müasir məktəblər tikilməklə insanlarımızın təhsil almasının əlçatan olması təmin edilmiş, müasir xəstəxanalar tikilmiş, xalqımızın səhiyyədən yararlanmaq imkanı yaxşılaşdırılmışdır. Korrupsiya əleyhinə mübarizə gücləndirilmişdir. Sahibkarlığın və biznesininkişafına yönəlik qanunvericik təkmilləşdirilmiş, iş adamlarının fəaliyyətinə mane olan əsassız yoxlamalar və müdaxilələr aradan qaldırılmışdır. İqtisadiyyatın şaxələndirilməsi və karbohidrogen ehtiyyatlarından asılılığın minimuma endirilməsi istiqamətində reallaşdırılan strategiya konkret nəticələrini verməkdədir. Regionlara səfəri zamanı prezident insanlarla birbaşa ünsiyyətə girərək onları maraqlandıran, narahat edən məsələləri müzakirə edir. Şəhid ailələrinə, hərçilərə qayğı xüsusi qeyd edilməlidir. Həmçinin, təbii fəlakətlər və bədbəxt hadisələr zamanı dövlət başçısı insanların yanında olduğunu nümayiş etdirir.



Ölkə başçısının özünün də qeyd etdiyi kimi xarici siyasətdə kimlərinsə xoşuna gəlmək mövqeyi və ya balanslaşdırılmış siyasət deyil, birbaşa milli maraqlar üstün tutulmaqla, milli maraqlara cavab verən, dövlətimizin mənafeyinə xələl gətirməyən siyasət həyata keçirilir. Dövlətimizin hərbi gücünün daha da artırılması, ordu quruculuğu istiqamətində həyata keçirilən işlər davam etdirilir. Elm, təhsil, mədəniyyət sahəsinə qayğı və diqqət artmaqdadır. Gənclərə, onların hərtərəfli inkişafına hədəflənmiş proqramlar icra edilməkdədir. Yəni, elə bir sahə yoxdur ki, dövlət başçımızın diqqətindən kənarda qalsın və ya inkişafına diqqət yetirilməsin. Belə olan halda insanlarımızın mövqeyinin əks olunduğu istənilən obyektiv sorğu məhz xalqın öz liderinə inamını ifadə edən “Opinion Way” şirkətinin həyata keçirdiyi sorğudakı kimi real nəticələrlə eynilik təşkil edəcəkdir”.

*Ceyhun Rasimoğlu*

# Azərbaycan “Formula - 1” yarışı üçün ideal məkana çevrilib

*Dövlət başçısının Sərəncamı ilə “Formula - 1” Azərbaycan “Qran-Pri”sinin təşkili və keçirilməsi ilə bağlı ölkəmizə gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları sadələşdirilib*

***Azərbaycanın idman tarixində yeni bir səhifə olan elit yarışmalar sırasında yer alan “Formula-1” yarım əsrdən artıq tarixində yaddaqalan zamanını yaşayır. 2016-cı ildən başlayaraq, paytaxtımızda keçirilən “Formula-1” yarışlarının yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə hər cür şərait yaradılıb. Müasir dünyanın idman ölkəsi kimi tanıdığı Azərbaycanda dövlət başçısının ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub.***

Azərbaycanda keçirilən dünya və Avropa çempionatları sübut edir ki, həqiqətən də, ölkəmizdə idman sürətlə inkişaf edir. Ölkəmizin, ardıcıl olaraq, beynəlxalq yarışlarda iştirakı və uğurlar qazanması beynəlxalq aləmin Azərbaycandakı idman hərəkatına olan diqqətini atırıb. Təbii ki, Azərbaycanda idman infrastrukturunun mövcudluğu beynəlxalq yarış keçirilməsinə imkan yaradıb. Dünyanın idman arenasında özünə layiqli yer tutan Azərbaycanın beynəlxalq yarışlara ev sahibliyi etməsində, iqtisadi nailiyyətlərimiz də əsas amillərdəndir. Artıq paytaxtımızda növbəti “Formula-1” Azərbaycan “Qran-Pri”sinin start götürməsinə az qalıb. Aprelin 26-28-də keçiriləcək “Formula-1” Azərbaycan “Qran-Pri”sini keçirmək, bütün iştirakçıları və qonaqları hər zaman olduğu kimi, növbəti dəfə də yüksək səviyyədə qarşılamaq üçün lazımi tədbirlər görülüb. Təbii ki, Bakının ev sahibliyi edəcəyi böyük idman yarışı maraqlı və əyləncəli olacaq. Ölkəmizə gələcək “Formula-1” iştirakçıları və qonaqlar, bir daha Azərbaycanın



dünyaya nümunə olan çoxəsrlik tolerant, mehriban birgəyaşama mədəniyyəti, multikultural mühiti ilə yaxından tanış ola biləcəklər. Hər il olduğu kimi bu il də minlərlə turistin ölkəmizə yarışları izləmək üçün gələcəyi şübhəsizdir. Martın 5-də Azərbaycan Prezidenti İlham Əliyevin “Formula - 1” Azərbaycan “Qran-Pri”sinin təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsinə dair Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycanda keçiriləcək “Formula - 1” “Qran-Pri”si ilə əlaqədar ölkəmizə gələn, “Formula - 1” yarışlarının beynəlxalq təşkilatçıları olan “Formula One Management Limited” şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq “Bakı Şəhər Halqası” Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartını, habelə, yarışa bilet və ya biletin əldə olunmasını təsdiqləyən sənədi təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər martın 15-dən mayın 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

Bundan başqa, Xarici İşlər Nazirliyinə “Qran-Pri” ilə əlaqədar Azərbaycana gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə, Azərbaycan Prezidentinin 2016-cı il 1 iyun tarixli Fərmanına əsasən, təsdiq edilmiş ölkələrin siyahısı üzrə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin “ASAN Viza” sistemi vasitəsilə elektron viza almaq imkanı barədə “Formula One Management Limited” şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat vermək tapşırılıb.

Eləcə də, “Qran-Pri” ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin “ASAN Viza” sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, eləcə də, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etmək barədə tapşırıq verilib.

Sərəncamda, həmçinin, Dövlət Miqrasiya Xidmətinə Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə “Qran-Pri” ilə əlaqədar ölkəmizə gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat vermək tapşırılıb.

Təbii ki, bu il “Formula - 1” “Qran-Pri”si ilə əlaqədar Azərbaycana gələn şəxslərin sayı daha çox olacaq. Belə ki, bilet satışları ötən illə müqayisədə daha çoxdur. Keçən ilin eyni dövrü ilə müqayisədə bilet satışında daha böyük artım müşahidə olunur. İndiyədək 46 ölkədən bilet alınıb və bu rəqəm hər ötən gün artaraq, daha geniş coğrafiyanı əhatə edir. Hazırda Rusiya və Böyük Britaniyadan sonra Azərbaycan “Qran-Pri”sinə ən çox maraq göstərən ölkələr Gürcüstan, Avstriya, Hollandiya, Polşa, Birləşmiş Ərəb Əmirlikləri və Finlandiyadır.

Görülən işlər, həyata keçirilən tədbirlər bu fikri təsdiqləyir ki, “Formula - 1”-in Bakıda təşkili dünya avtoidman ictimaiyyətinin Azərbaycan “Qran-Pri”sinə marağını daha da artırır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Monteneqro XİN-nin Bakıda diplomatik nümayəndəliyin açılması ilə bağlı məktubu Azərbaycan Xarici İşlər Nazirliyinə təqdim edilib



Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi, səfir Pərvin Mirzəzadə Monteneqronun Azərbaycana yeni təyin olunmuş müvəqqəti işlər vəkili Zelko Raduloviç ilə görüşüb. Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Pərvin Mirzəzadə Z.Raduloviça Azərbaycanda diplomatik fəaliyyəti dövründə uğurlar arzulayıb.

Monteneqronun Azərbaycanda diplomatik nümayəndəliyin fəaliyyətə başladığını qeyd edən müvəqqəti işlər vəkili ölkələrimiz arasında əməkdaşlığın inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirib. Bu xüsusda, o, Monteneqro Xarici İşlər Nazirliyinin diplomatik nümayəndəliyin açılması ilə bağlı məktubunu səfir P.Mirzəzadəyə təqdim edib. Görüşdə Azərbaycan və Monteneqro arasında münasibətlərin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# “The Diplomat in Spain” jurnalı Azərbaycanın on milyonuncu sakininin dünyaya gəlməsi haqqında məqalə dərc edib

“The Diplomat in Spain” jurnalının elektron versiyasında “Qız uşağının doğulması ilə Azərbaycan əhalisinin sayı 10 milyona çatdı” adlı məqalə yayılıb. AZƏRTAC xəbər verir ki, məqalədə ölkənin paytaxtı Bakıda aprelin 6-da qız uşağının dünyaya gəlməsi ilə Azərbaycan əhalisinin 10 milyon nəfərə çatması qeyd olunur. Jurnalda diqqətə çatdırılır ki, Azərbaycanda son illərdə əhalinin daimi artımı müdrik və uzaqgörən lider İlham Əliyev tərəfindən ölkədə iqtisadi inkişafın, sabitliyin möhkəmləndirilməsi və sosial təminatın gücləndirilməsi istiqamətində aparılan böyük işlərin nəticəsidir. Prezident İlham Əliyev tərəfindən xüsusən bu ilin ilk aylarında həyata keçirilən sosial islahatlar dayanıqlı inkişaf kontekstində müsbət demoqrafik şərait yaradıb və Azərbaycan əhalisinin artım tempinin dəstəklənməsini təmin edib. 2000-ci ildə Azərbaycanın əhalisi 7,7 milyon nəfər olub. Bu göstərici 2009-cu ildə 9 milyon nəfəri keçib, bununla yanaşı, əhalinin artım tempi 0,8 faiz təşkil edib.

## BSU rektoru Dövlət Təhlükəsizlik Xidmətinin medalı ilə təltif olunub



***Bakı Slavyan Universitetinin elmi şurasının geniş iclasında universitetin rektoru, professor Nurlana Əliyevaya Dövlət Təhlükəsizlik Xidmətinin rəhbərliyi tərəfindən "Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919-2019)" medalı təqdim olunub.***

Təqdimetmə mərasimində çıxış edən DTX-nin rəsmi nümayəndəsi medalın N.Əliyevaya Azərbaycan dövlətçiliyinin, ölkənin milli təhlükəsizliyinin qorunmasında göstərdiyi əvəzsiz xidmətlərə, vətənpərvər və təəssübkeş gənclərin tərbiyəsi sayəsindəki çoxillik ardıcıl fəaliyyətinə görə verildiyini bildirib. O, N.Əliyevanın müstəqil Azərbaycan dövlətinin formalaşmağa başladığı ilk günlərdən Ulu Öndər Heydər Əliyevin sədaqətli silahdaşlarından, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bütün çağırışlarına ilk səs verən əqidəli insanlardan olduğunu vurğulayıb. DTX rəsmisi N.Əliyevanın Yeni Azərbaycan Pariyasının qurulmasındakı xidmətlərini xüsusi vurğulayıb, bu gün həmin partiyanın Qadınlar Şurasına uğurla rəhbərlik etdiyini qeyd edib. DTX rəsmisi BSU-nun Azərbaycan mədəniyyətinin, elminin, tarixinin, dilinin dünyada təbliği istiqamətində ardıcıl addımlar atdığını diqqətə çatdırıb və bunun dövlət orqanları tərəfindən yüksək qiymətləndirdiyini qeyd edib.

Mərasimdə çıxış edən BSU rektoru Nurlana Əliyeva ona göstərilən diqqət və etimada görə dövlət başçısı İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, dövlət təhlükəsizlik orqanlarının ayıq-sayıq əməkdaşlarına dərin təşəkkürünü bildirib. O, Ulu Öndərin müəyyən etdiyi siyasi kursun dövlətimizin başçısı İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, Yeni Azərbaycan Partiyasının bütün rəhbərliyi və üzvləri tərəfindən uğurla həyata keçirildiyini vurğulayıb, dövlətimizin nüfuzunun dünya arenasında gündən-günə yüksəldiyini qeyd edib. N.Əliyeva bundan sonrakı bütün həyatını Azərbaycan dövlətçiliyinin qüdrətlənməsinə və inkişafına sərf edəcəyini söyləyib.

***ZÜMRÜD***

## "Rossiya- Kultura" televiziyası Naxçıvanda çəkilişlər aparıb



"Rossiya- Kultura" televiziyasının Azərbaycan elminin inkişafı haqqında hazırladığı filmin çəkilişlərinin bir hissəsi muxtar respublikada aparılıb. AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, muxtar respublikada çəkilişlərinə aprelin 6-dan başlanılan verilişin redaktoru Marina Orlova, rejissoru Aleksey Jukov, kinooperatoru isə Maksim Xəlilovdur. İlk gün Heydər Əliyev Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma altında Muzey Kompleksi, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi və Gülüstan türbəsində çəkilişlər aparılıb. Aprelin 7-də isə çəkiliş heyəti Qarabağlar Türbə Kompleksində və Duzdağ Fizioterapiya Mərkəzində olublar. Tarixi abidələrdə çəkiliş aparan televiziyanın əməkdaşlarına muxtar respublikanın qədim tarixi və adət-ənənələri haqqında ətraflı məlumat verilib.

Çəkilişlər zamanı muxtar respublikada türk-islam mədəniyyəti abidələrinin elmi tarixi əsaslarla bərpa və təmir edilməsi önə çəkilib. Qonaqlar aprelin 8-də AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunda ayrı-ayrı şöbə və laboratoriyalarda olub, burada da çəkilişlər aparıblar.

Həmçinin Naxçıvan teleradiosu ilə də tanışlıq olub. Çəkiliş qrupunun rəhbəri Marina Orlova müsahibəsində deyib ki, Naxçıvanın tarixi abidələri çox xoşuna gəlib: "Buradakı hər bir tarixi abidənin fərqli memarlıq üslubunun olması diqqətimi çəkdi. Qarabağlar Türbə Kompleksində də olduq. Məlumat verildi ki, bu tarixi abidə qədim quruluşu qorunmaqla elmi əsaslarla yenidən bərpa edilib. Təəssüflənirəm ki, biz bu gün qayıdırıq. Bu qədim, zəngin diyardan xoş təəssüratlarla ayrılırıq. Çalışacağam, yenidən bu gözəl diyara gəlim".

Şəhərin təmizliyindən danışan qonaq bildirib ki, çoxdandır belə təmizliyi heç yerdə görməyib. Ucqar kəndlərdə abad yollar var, hər bir kəndə təbii qaz, işıq çəkilib. Kəndlərdə sürətli internet də mövcuddur.

Marina Orlova qeyd edib ki, Naxçıvan televiziyası ən müasir texnoloji avadanlıqlarla təchiz olunub: "Naxçıvanda 2011-ci ildən rəqəmsal yayıma keçilib. Rusiyada rəqəmsal yayıma hələ indi keçirlər. Televiziyanın studiyaları, montaj otaqları, arxivi, radiosu, kitabxanası müasir standartlara cavab verir. Bunların hər biri gələcəyə hesablanmış işlərdir. "Nuhçıxan" İnformasiya Agentliyinin kollektiv üçün də müasir iş şəraiti yaradılıb, kompüter və digər avadanlıqlar istifadəyə verilib. Təbii ki, bütün bunların hər biri məndə xoş təəssürat yaratdı. Mən özüm peşəkar televiziya işçisiyəm və burada yaradılan şəraitə peşəkarcasına qiymət verirəm".

## Ərəbistanın turizm firmaları Naxçıvanı təbliğ edir



Səudiyyə Ərəbistanı Krallığının Turizm və İrs Komitəsinin nəzdində fəaliyyət göstərən turizm media orqanlarının "arabtourist.net" və "ac4mt.net" internet saytlarında Naxçıvan Muxtar Respublikası haqqında ərəb dilində məlumat yerləşdirilib, Naxçıvan şəhərinin və muxtar respublikanın təbiət mənzərələrini əks etdirən fotoşəkillər paylaşılıb.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, "Qafqazın incisi, İslam Mədəniyyətinin Paytaxtı" sərlövhəli yazıda Naxçıvanın tarixinə nəzər salınır, muxtar respublikada 1200-dən artıq dünya və yerli əhəmiyyətli tarixi abidənin olduğu qeyd edilir. Diqqətə çatdırılır ki, qədim tarixə malik olan Naxçıvan şəhəri vaxtilə güclü dövlətlərin, o cümlədən Atabəylər dövlətinin paytaxtı olub, burada elm, mədəniyyət və sənətkarlıq geniş inkişaf edib, islami dəyərlər yaşadılıb.

Yazıda muxtar respublikanın müasir inkişafından da bəhs olunur və vurğulanır ki, hazırda qədim Naxçıvan müasir inkişaf mərhələsindədir. Azərbaycanın Naxçıvan Muxtar Respublikasında turizm üçün geniş imkanlar var. Təbiəti, tarixi abidələri və müalicə mərkəzləri turistlər üçün ideal yerlərdir. Ərəbistanın Azərbaycana turlar təşkil edən turizm firmalarının "Twitter" sosial şəbəkə hesablarında isə muxtar respublikanın inkişafını və turizm potensialını təbliğ edən videomateriallar və fotoşəkillər paylaşılıb.

## Fond: 122 şəxsə güzəştli mənzillərin alınması üçün 5,3 milyon manat ipoteka krediti verilib

Bu ilin yanvar-mart aylarında İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə 122 şəxsə Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) sərəncamında olan güzəştli mənzillərin alınması üçün 5,3 milyon manat məbləğində ipoteka krediti verilib. Fonddan AZƏRTAC-a bildirilib ki, aprelin 1-nə MİDA-nın sərəncamında olan güzəştli mənzillərin maliyyələşdirilməsi üçün verilən ipoteka kreditlərinin məbləği 15,4 milyon manat (353 ədəd) təşkil edib.

## "Vikipediya"da Azərbaycanda Stalin repressiyaları ilə bağlı məqalə yaradılıb



Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasının (MEK) "Vikipediya" Metodik Mərkəzinin könüllüləri tərəfindən "Vikipediya"da "Azərbaycanda Stalin repressiyaları" sərlövhəli məqalə yaradılıb. MEK-dən AZƏRTAC-a bildirilib ki, "Vikipediya"da seçilmiş məqalə statusu almış bu geniş materialda repressiyalara qədər baş verən hadisələr, İosif Stalinin hakimiyyətə gəlişi, kütləvi "təmizləmə"lərin başlanması barədə məlumat verilir.

"1930-1936-cı illər arası siyasi repressiyalar", "Böyük təmizləmə Azərbaycanda", "Respublika rəhbərlərinə və partiya üzvlərinə qarşı repressiyalar", "Şamaxı prosesi", "Xalq təsərrüfatı sistemində repressiyalar", "Ziyalıların repressiyası", "Mikayıl Müşfiqin işi", "Elm xadimləri", "Ümumittifaq pantürk təşkilatı" işi üzrə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında repressiyalar" sərlövhəli məqalələrdə oxucular mövzu ilə bağlı ətraflı məlumat əldə edə bilərlər. Məqalədə, həmçinin repressiyaya məruz qalmış şair və yazıçılar, incəsənət xadimləri, "böyük təmizləmə"nin bitməsi haqqında geniş məlumat verilir, qurbanların sayı göstərilir. Məlumatda, eyni zamanda, "Almanların Azərbaycandan deportasiyası", "İşgəncələr", "Repressiyaya məruz qalanların yaxınları", "Repressiya və din", "Azərbaycanda QULAQ düşərgələri", "Repressiyaya məruz qalmış Cümhuriyyət tələbələri" başlıqları da mövcuddur.

## AzerTelecom kibertəhlükəsizlik sahəsində qlobal şirkətlərin rəsmi tərəfdaşı oldu

***Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti AzerTelecom dünya üzrə tanınmış və kibertəhlükəsizlik sahəsində ixtisaslaşmış şirkətlər olan "Trend Micro", "Symantec", "ESET", "Quest" və "One İdentity" şirkətlərinin rəsmi tərəfdaşı statusunu əldə edib.***

Qeyd olunan tanınmış şirkətlərlə tərəfdaşlıq AzerTelecom şirkətinin korporativ müştərilərə kibertəhlükəsizliyin təmin edilməsi istiqamətində həllərin təqdim olunmasına şərait yaradır. Bu qlobal şirkətlərlə tərəfdaşlıq imkan verir ki, AzerTelecom onların təqdim etdiyi qabaqcıl kibertəhlükəsizlik həlləri ilə korporativ müştərilərin sistemlərini, şəbəkə və proqram təminatlarını müxtəlif rəqəmsal hücumlardan qorusun və bələliklə də müştərilərin biznesinin daha təhlükəsiz və etibarlı şəkildə fəaliyyətinə öz töhfəsini versin.

AzerTelecom

Hazırda dünya üzrə informasiya təhlükəsizliyi məsələlərinə mühüm diqqətin göstərilməsi fonunda AzerTelecom şirkəti kibertəhlükəsizliyin təmin edilməsi sahəsində müştərilərə keyfiyyətli həllərin və ən son yanaşmaların təqdim olunmasını öz fəaliyyətində əsas tutur. Belə ki, dövrümüzdə effektiv təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi xüsusilə çətinləşir, çünki hər gün müxtəlif cihaz və hücum platformaları daha da təkmilləşir. AzerTelecom tərəfindən təqdim olunan həllər şirkətlərə təhlükəsizlik sahəsində qarşılaşdıqları çağırışlara dövrün tələblərinə uyğun effektiv cavab verməyə imkan verir. Onu da qeyd edək ki, AzerTelecom şirkətinin Kommersiya departamentinin əməkdaşları kibertəhlükəsizlik sahəsi üzrə ixtisaslaşmış təlimlərdə də iştirak edərək müvafiq sertifikatlara yiyələniblər.

AzerTelecom şirkəti Azərbaycanın ilk mobil operatoru Bakcell şirkətinin törəmə müəssisəsidir və 2008-ci ildə təsis edilib. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. AzerTelecom hazırda Azərbaycanın sahib olduğu Enerji və Nəqliyyat Mərkəzi statuslarına əlavə olaraq ölkənin Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir. "Digital Hub" proqramının məqsədi ölkəni Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün Rəqəmsal Mərkəzə çevirməkdir.




# Demokratiyanın təntənəsi: Türkiyə seçki sınağından üzüağ çıxdı

***Türkiyədə martın 31-də keçirilən bələdiyyə seçkisinə dünyada böyük maraq göstərildi. Ekspertlər bu seçkini ölkədə demokratiyanın növbəti sınağı kimi təqdim edirdilər. Verilən bir sıra proqnozlarda iqtidarın öz siyasi rəqiblərini "sıxışdıracağı" barədə fikirlər yer alırdı. Ancaq seçki bütün bu neqativ fikirləri alt-üst etdi. Seçki tam demokratik qaydada keçdi və nəticələr də bunu təsdiq edir. Belə məlum oldu ki, üç ən böyük şəhərdə müxalif Cümhuriyyət Xalq Partiyasının nümayəndələri qalib gəliblər.***

İzmirlə bağlı heç bir mübahisə yoxdur. İstanbul və Ankara üzrə seçkinin nəticələrinə hakim Ədalət və İnkişaf Partiyası etiraz edir. Bundan başqa, bir sıra əyalətlərdə, məsələn, Qars və İqdırda Milliyyətçi Hərəkat Partiyasının etirazları vardır. Belə çıxır ki, prosesə iqtidarın heç bir müdaxiləsi olmayıb. Bununla yanaşı, Türkiyə miqyasında hakim partiya qalib gəlib. Bu isə ölkədə qüvvələr nisbətinin hiss ediləcək səviyyədə dəyişmədiyini göstərir. Maraqlıdır ki, Qərbin ekspert dairələri seçkinin geosiyasi nəticələrindən çox Türkiyədəki siyasətçilərin şəxsi münasibətlərini önə çəkirlər. Bu, heç şübhəsiz, Türkiyəyə münasibətdə qeyri-obyektiv məqamlardan xəbər verir. Türkiyədəki bələdiyyə seçkisinin geosiyasi aspekti üzərində yuxarıda vurğulanan məqamlar bağlılığında geniş dayanmağa ehtiyac görürük.

## Ankara: siyasi kurs dəyişmir

Türkiyə növbəti dəfə dünyaya demokratik dövlət olduğunu nümayiş etdirdi. Bələdiyyə seçkisinə maraq öncədən böyük idi. Hətta ABŞ Prezidenti Donald Trampın bu seçkini izlədiyi barədə informasiyalar yayılmışdı. Türkiyənin özündə isə seçki kampaniyası həm maraqlı, həm də intensiv aparılırdı. Bütün namizədlər üçün geniş şərait yaradılmışdı. Meydanlarda təşkil edilən mitinqlərdə hər bir partiya nümayəndəsi sərbəst fikir söyləyə bilirdi. Demokratik ab-havanın mövcudluğunu seçkinin nəticələri də tam təsdiq etdi.

Öncədən qeyd edək ki, mübarizə əsas olaraq "Cümhur ittifaqı" ilə "Millət ittifaqı" arasında gedirdi. Birinci seçki blokuna hakim Ədalət və İnkişaf Partiyası (AKP) ilə müxalifətdə olan Milliyyətçi Hərəkat Partiyası (MHP) daxil idi. İkinci blokda isə ana müxalifət sayılan Cümhuriyyət Xalq Partiyası (CHP) ilə "İYİ Partiya" birləşmişdi. Bu siyasi qüvvələr bələdiyyə seçkilərində qalib gələrək 4 ildən sonra olacaq seçkiyə bir növ hazırlıq görmək fikrində idilər. Nəticələr ekspertləri bir qədər düşündürdü.

Bütövlükdə AKP qalib gəlib - 44,32%. İkinci yerdə cümhuriyyətçilərdir - 30,11%. Sonrakı yerləri "İYİ Partiya" (7,45%), MHP (7,31%), HDP (4,24%) və Səadət Partiyası (2,71%) tutub. Seçki bloku kimi "Cümhur ittifaqı" qalib gəlib - 51,63%.

Bu göstəricilərə görə AKP 15-ci dəfə seçkilərdə qalibiyyət qazanıb. Bu partiya 15 böyük şəhərdə, 24 vilayətdə və 511 rayonda qalib gəlib. Növbəti 5 ildə Türkiyədə bələdiyyələrin təxminən 56 faizinə AKP mənsubları rəhbərlik edəcək. Prezident Rəcəb Tayyib Ərdoğan seçicilərə təşəkkür ifadə edib. Türkiyə miqyasında AKP-nin qalib gəlməsini ölkənin siyasi kursuna sadiqlik əlaməti kimi xarakterizə edirlər. Onu da deyək ki, Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə dövlət başçısını qurucusu olduğu və başçılıq etdiyi Ədalət və İnkişaf Partiyasının bələdiyyə seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib.

Şübhəsiz ki, bələdiyyə seçkisində hakim siyasi qüvvənin qələbəsi geosiyasi aspektdə əhəmiyyətli hadisədir. Çünki bu o deməkdir ki, Türkiyə müstəqil xarici və daxili siyasətini davam etdirəcək. Ankaranın 2023-cü il hədəflərinə çatması üçün bu, vacib məqamdır. Qərb və Rusiya da məsələnin fərqindədirlər. Rusiya Prezidenti Vladimir Putinin R.T.Ərdoğanı ilk təbrik edənlər sırasında olması təsadüfi deyil.

Seçkinin tam demokratik ruhda keçməsinin başqa aspektdə əhəmiyyəti Qərblə bağlı yanarmış situasiya ilə əlaqəlidir. Məsələ ondan ibarətdir ki, Qərbin siyasi dairələri Türkiyənin demokratik və dünyəvi prinsiplərdən uzaqlaşaraq avtoritar idarəçiliyə keçdiyi haqqında fikir bildirirlər. Guya İslamın güclənməsi müsəlman dövlətində demokratiyanın zəifləməsinə səbəb olur. Ancaq bələdiyyə seçkisi göstərdi ki, Türkiyə nəinki demokratik prinsiplərdən uzaqlaşıb, hətta Avropaya belə nümunə ola biləcək bir səviyyədə demokratik iradəyə malikdir. Bunu seçki ilə bağlı konkret faktlarla sübut etmək olar.

Hakim partiya yalnız aktiv seçki təbliğatı vasitəsilə uğur qazana bildi. Onunla müxalifət arasındakı fərq çox deyil. Seçkinin nəticələrinin hesablanması prosedurunda müxalifət nümayəndəsinin hüquqları tam qorundu. Və etirazçı rolunda hakim partiyanın nümayəndələri çıxış edirlər. İstanbul və Ankara nümunəsi bunu təsdiq edir.

## Geosiyasi aspekt: qalib türk dövlətçiliyidir!

İstanbul bələdiyyəsinə keçirilən seçkidə müxalif partiyanın namizədi Əkrəm İmamoğlu hakim partiyadan olan rəqibi sabiq baş nazir Binəli Yıldırımı 0,25 faiz səslə məğlubiyyətə uğradıb. Müxalifət nümayəndəsinin sözlərinə görə, onlar arasında fərq təqribən 22 min səsdir. B.Yıldırım buna qarşı deyir ki, Ə.İmamoğlunun söylədiyi rəqəmi qəbul etsək, onda aradakı fərqdən 10,5 dəfə çox olan etibarsız bülletenlər haqqında nə deyə bilərik? Bu məsələni Ali Seçki Komissiyası yoxlamalıdır. Əgər fərq yenə də Ə.İmamoğlunun xeyrinə olsa, onu məmnuniyyətlə təbrik edəcəyik. Ali Seçki Komissiyası bu faktı yoxlayır. Yəni proses tam demokratik şərtlər daxilində gedir.

Buna bənzər situasiya Ankarada yaranıb. Orada da hakim partiya etirazçı kimi çıxış edir. Ankaradakı seçkidə bir sıra nöqsanlar olub ki, onların aradan qaldırılması ilə hakim partiyanın nümayəndəsinin qələbəsi mümkün ola bilər. Ancaq bütün bu proseslər dəqiq qaydada demokratik prinsiplər üzrə aparılır. Hələ heç kim İstanbulda kimin qalib gəldiyi haqqında son fikir söyləmir. Lakin Ə.İmamoğlunun daha çox səs topladığı etiraf edilir. Yalnız YSK-nın lazımi yoxlamalarından sonra qalib elan olunacaq.

Bunlar onu ifadə edir ki, Türkiyə seçki məsələsinə tam demokratik aspektdə yanaşır. Obyektiv yoxlamalardan sonra elan ediləcək nəticələri də bütün siyasi qüvvələr qəbul edəcək. Maraqlıdır ki, Qərbin ekspert dairələri seçkinin bu demokratik tərəfindən danışmaq əvəzinə, məsələni Ərdoğanın məğlubiyyəti kimi təqdim etməyə çalışırlar. Qərb mediasında Türkiyənin İstanbul, Ankara və İzmir kimi böyük şəhərlərində müxalifət qüvvələrinin qalib gəlməsini iqtidarın siyasətinin uğursuzluğu kimi qələmə verməyə cəhd edirlər. Bir anlığa bunun əksini təsəvvür edək. Tutaq ki, Türkiyənin bütün böyük şəhərlərində ancaq hakim partiyanın nümayəndələri qalib gəlib. Onda Qərb mətbuatı nə yazardı? Yazardı ki, Türkiyədə demokratiya boğulur, çünki bütün böyük şəhərlərdə iqtidar nümayəndələri qalib gəlib. AKP avtoritar rejim yaradıb və s. və i.a. Təcrübə bu cür yazacaqlarını təsdiq edir.

Konkret desək, bunlar onu göstərir ki, Qərbin müəyyən dairələri müsəlman dövləti kimi Türkiyəyə qərəzli münasibət göstərir. Türkiyədə müxalifət nümayəndələrinin böyük şəhərlərdə qalib gəlməsi kiminsə məğlubiyyəti deyil, bu ölkədə demokratiyanın oturuşduğunun nümayişidir. Türkiyə kifayət qədər dəqiq idarə olunan köklü dövlətdir. Bundan başqa, siyasi fikir ayrılığına baxmayaraq, Türkiyənin partiyaları ilk olaraq dövlətçiliyə xidmət edirlər. İstanbul və Ankaranın bələdiyyə sədrləri müxalifətçi kimi xalqa xidmət edəcəklər. Əgər uğurlu olsalar, daha çox səs qazanacaqlar, əksi olsa, əhali onlara səs verməyəcək. Bu qədər dəqiq bir sistem vardır.

Bəs onda bir sıra ekspertlər məsələni niyə məhz Ərdoğanın məğlubiyyəti kimi təqdim edirlər? Onlar, ümumiyyətlə, hər bir müsəlman dövlətində siyasi mübarizəni şəxslərin mübarizəsi prizmasından təqdim etməyə çalışır, özlərinə gəldikdə isə, mənzərəni demokratik müstəvidə göstərməyə cəhd edirlər. Yəni müsəlman ölkələrində dövlətçilik deyil, insanların şəxsi maraqları üstünlük təşkil edir ki, bu da müasir dövrün meyarlarına görə tam dövlətçilik demək deyil. Onda "dövlətçi" Qərbin "tam dövlətçi" olmayan müsəlman ölkələrində "əsl dövlətçiliyin" yaranması üçün proseslərə müdaxilə etmək "haqqı vardır".

Təbii ki, bu cür qərəzli yanaşmanın mahiyyəti və məqsədini Türkiyə kimi böyük dövlətçilik ənənəsi olan bir ölkənin siyasi dairələri və cəmiyyət çox gözəl başa düşür. Bu səbəbdən başqalarının nə deməsindən asılı olmayaraq türklər demokratik qaydaların inkişafı yolundan dönməzlər.

Türkiyənin daxili siyasi mənzərəsində isə müəyyən dəyişikliklərin baş verdiyini inkar etmək olmaz. Onların sırasında ekspertlər ölkənin kürd əsilli vətəndaşlarının hakim partiyaya daha çox inanmağa başladığını ayrıca qeyd edirlər. Məsələn, Hakkari bölgəsində ənənəvi olaraq Xalqların Demokratik Partiyasının (HDP) qalib gəldiyi yerlərdə vətəndaşlar AKP-yə səs veriblər. Bu o deməkdir k, türk cəmiyyəti daha yüksək səviyyədə monolitləşməyə başlayıb. Belə bir vəziyyət təbii ki, dövlətin siyasi, iqtisadi və mədəni aspektlərdə daha çox uğur qazanması üçün ciddi əsaslar yaradır.

Beləliklə, Türkiyədəki bələdiyyə seçkisi göstərdi ki, ölkə demokratiya və inkişaf yolunda inamla irəliləyir. Qardaş ölkə artıq qlobal miqyasda söz sahibidir və onun mövqeyi getdikcə daha da güclənir. Bütün aspektlərdə bu seçkidən uğurla çıxan Türkiyə nəzərdə tutduğu nəticələrə nail ola biləcək. Buna ən çox sevinənlər sırasında təbii ki, Azərbaycan dövləti və xalqı da vardır.

***Newtimes.az***

# Bir həmlə kifayətdir ki, Ermənistan darmadağın olsun!

***Ermənistanın hakim rejimin apardığı qeyri-konstruktiv siyasət hər bir danışıqlardan sonra özünü daha qabarıq şəkildə göstərir. Hələ Vyana görüşü ərəfəsi küçə demokratı Paşinyan və onun komandası çalışdı ki, danışıqlarda qondarma "DQR" tərəf kimi iştirak etsin.***

Ancaq ATƏT-in Minsk Qrupunun formatın dəyişməyəcəyi ilə bağlı verdiyi bəyanat və Vyana görüşünün əvvəlki danışıqlar formatında keçirilməsi Azərbaycan diplomatiyasının uğuru kimi yadda qaldı. Söhbət etdiyimiz müsahiblərimiz Paşinyan rejiminin, xüsusilə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsində tutduğu səhv və yanlış siyasətinin küçə demokratlarının süqutuna gətirib çıxaracağını bildirdilər.

### Millət vəkili Kamilə Əliyeva: "Aprel zəfəri təkrarlana bilər"



- Bu gün Ermənistan iqtisadi, siyasi, hərbi və digər sahələrdə çox ağır bir durumda olan bir ölkədir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi işğalçı ölkə üçün çox ağır bir problemə çevrilib. Münaqişə elə bir mərhələdədir ki, artıq Ermənistan bunun içərisində çapalayır. Hətta baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan "Amerikanın səsi"nə müsahibə verərkən bildirib ki, minlərlə erməni əsgər Dağlıq Qarabağda heç nə uğrunda həyatlarını qurban veriblər. Bütün bunlar erməni cəmiyyətinin ümumi fikri və mövqeyidir. Ermənilər müharibənin, işğalçılıq siyasətinin onlara ancaq fəlakətlər gətirdiyini dərk edirlər. Hakim rejim müstəqil olmadığından, xalqla eyni mövqedə ola bilmir. Küçə demokratı Paşinyan Vyana görüşü ərəfəsi danışıqlarda qondarma "DQR"-in də iştirakına dair sərsəm fikirlər səsləndirirdi. Yəni danışıqların formatının dəyişdirilməsi ilə bağlı özünün təxribatçı təkliflərini irəli sürürdü. Amma Azərbaycanın sərt münasibəti fonunda, ATƏT-in Minsk Qrupunun həmsədrləri, eləcə də, Avropa İttifaqının rəsmiləri, birmənalı şəkildə, bu tələbi rədd etdilər və açıq şəkildə Ermənistana izah etdilər ki, mövcud format dəyişdirilə bilməz, onun dəyişdirilməsi mümkünsüzdür. Dağlıq Qarabağ münaqişənin sülh yolu ilə həll olunmasında əlbəttə ki, bizim gözləntilərimiz çoxdur. Sülh danışıqları nəticə verməsə, güclü və qüdrətli Azərbaycan Ordusu hərəkətə keçəcək və bu zaman Ermənistanın daşı daş üstə qalmayacaq. Azərbaycan işğalçı Ermənistanla müqayisə oluna bilməz. Azərbaycan dövləti, xalqı və ordusu özünün qələbələrini nümayiş etdirir. Mən elə 2016-cı il aprel döyüşlərini, xüsusilə, qeyd etmək istəyirəm ki, qısa müddətdə, Azərbaycan Ordusu Ermənistanın 25 ildən çox müddətdə qurduğu müdafiə istehkamlarını dağıdaraq, 2 min kvadratmetr ərazini işğaldan azad etdi. Bununla da, Azərbaycan Ordusu öz gücünü və qüdrətini düşmən ölkəyə nümayiş etdirdi. Eyni zamanda, aprel zəfəri istər Ermənistana, istər Ermənistanın himayədarlarına, istərsə də, ikili standartlardan əl çəkməyən beynəlxalq birliklərə bir mesaj idi. Bu qələbə həm də, o demək idi ki, işğalçı ölkə sülhə gəlməsə, aprel zəfəri təkrarlana bilər. Amma artıq istər Ermənistan xalqı, istərsə Paşinyanın yoldaşı, istərsə də Ermənistan rəhbərliyində olanlar, başa düşürlər ki, Ermənistanın inkişaf etməsi və xalqının yaxşı yaşaması, Azərbaycandan asılıdır. Yəni o mənada ki, onlar nə qədər tez işğal altında olan torpaqlarımızı azad etsələr və öz ordularını torpaqlarımızdan çıxarsalar, bir o qədər tez Ermənistanın inkişaf etməsi üçün münbit şərait yarana bilər. Münaqişənin uzanması işğalçının ziyanınadır. Azərbaycan Ordusu Ali Baş Komandanımız İlham Əliyevin əmri ilə işğal altında olan torpaqlarımızı, ən qısa müddətdə, azad etməyə qadirdir. Bunun üçün həm də, Azərbaycan dövlətinin hərbi gücü və imkanı var. Ona görə də, Ermənistan tərəfi reallığı dərk etməli və danışıqlar masası ətrafında konkret addımların atmalıdır.

### Politoloq Elşən Manafov: "Paşinyan və komandasının "Sorosun uşaqları" adlandırılması təsadüfi deyil"



- Ermənistanın müdafiə naziri David Tonoyanın Vaşinqtondan Azərbaycan əleyhinə verdiyi bəyanat diqqətdən yayınmadı. Bəyanatın özünün Vaşinqtondan verilməsi də maraqlıdır. Belə nəticə çıxdı ki, David Tonoyan sanki bu bəyanatı Vaşinqtonda kimlərləsə razılaşdırıb. Bu da, ondan irəli gəlir ki, Paşinyanın həyata keçirdiyi "məxməri inqilab"ın əsas maliyyə dəstəkçiləri də ABŞ-dan idi. Paşinyan və onun komandasının "Sorosun uşaqları" adlandırılması bu baxımdan, təsadüfi deyil. Amma bütün hallarda bu bəyanatın ATƏT-in Minsk Qrupuna üzv olan dövlətlərdən birindən verilməsi diqqəti cəlb edir. Təəssüflər olsun ki, Tonoyanın bu bəyanatına nə ABŞ-dan, nə də Minsk Qrupunda təmsil olunan digər dövlətlərdən kəskin reaksiya verilmədi. Dövlət Departamentinin də buna ciddi reaksiyası olmadı. Azərbaycanın isə bu bəyanata mövqeyi kəskin və birmənalıdır. Müdafiə naziri Zakir Həsənov qarşı tərəfə xatırlatdı ki, Azərbaycan təkcə bölgənin yox, dünyanın ən güclü ordularından birinə malikdir. Eyni zamanda, erməni tərəfinə 2016-cı ilin aprel ayında baş vermiş döyüşlərin məlum nəticələrini xatırlatdı. Həmin döyüşlərdə Azərbaycan Ordusunun cəmi 20 faizi iştirak etmişdi və əldə edilən nəticələr də göz qabağında idi. Habelə, Zakir Həsənov, onu da bildirdi ki, lazım gəlsə, Ermənistanın müdafiə naziri ilə İrəvanda da görüşə bilərik. Bununla belə, Azərbaycan münaqişənin dinc yolla həllinə hazır olduğunu da, bir daha nümayiş etdirdi. Ermənistan tərəfi isə güzəştə getmək niyyətindən uzaq olduğunu göstərir. Lakin son günlərdə baş verənləri Azərbaycan diplomatiyasının uğuru kimi qeyd etmək olar. Çünki Paşinyan Vyana görüşünə qədər çalışdı ki, danışıqların formatı dəyişsin. Azərbaycan tərəfi, birmənalı tərzdə bildirdi ki, format dəyişə bilməz. Vyana görüşündən sonra Minsk Qrupunun formatın dəyişməyəcəyi ilə bağlı verdiyi bəyanat Azərbaycan diplomatiyasının uğuru kimi yadda qaldı. Hesab edirəm ki, bu uğur danışıqların növbəti mərhələsi üçün impulsiv xarakter verə bilər. Digər yandan, bu qarşılıqlı bəyanatlar, həm də ondan qaynaqlanır ki, həmişə yaz aylarında hərbi əməliyyatların başlaması ehtimalı yüksək olur. Tərəflər bir-birinə əzələ nümayiş etdirməyə çalışırlar. Ermənistan tərəfi unutmamalıdır ki, təkcə Azərbaycan Ordusunun xərcləri Ermənistanın illik hərbi büdcəsindən dəfələrlə çoxdur. Yəqin ki, Ermənistan və onun havadarları bu mesajların arxasında hansı məqamların dayandığını başa düşəcəklər.

***GÜLYANƏ***

# Satqınlarla xəyanətkarların davası

## *Müsavatla AXCP-nin mitinq ağrısı ciddi fəsadlar yaradıb*

***Deyir "aşığın sözü qurtaranda, neynim-neynim deyir". İndi də sosial bazası sıfır həddində olan, artıq 2003-cü ildən arxivin küncünə atılan dağıdıcı müxalifət, indi də mitinq davası ilə gündəmdə qalmaq istəyir. Düz 25 ildən çoxdur ki, mitinq keçirirsiniz, nəticəsi nə olur? Biabırçılıq. Abırsız nə qanır, biabırçılıq nədir? Sözümüzün canı odur ki, demokratiyadan, birlikdən daha çox danışırlar, ancaq bu sözlərin heç mənasını belə anlamırlar.***



Elə son günlərdə özlərini dağıdıcı müxalifət düşərgənin "anası", "atası" hesab edən "Milli Şura"nın aprel ayına mitinq təyin etməsi AXCP-Müsavat arasında yaranmış gərginliyin daha da artmasına səbəb olub. İndi, necə deyərlər, başlayıblar günahkar axtarmağa. AXCP sədri Əli Kərimli ilə Müsavat başqanı Arif Hacılı arasında təhqir başlayıb, nə başlayıb.

### Arif Hacılı: "Əli Kərimli bu dəfə də satqın statusunu bir daha təsdiqlədi"

Müsavat başqanı Arif Hacılı sosial şəbəkədə status paylaşaraq, baş verənlərin səbəbkarının uğursuz alim və ikiqat uğursuz siyasətçi Cəmil Həsənlini "demokratik düşərgənin" maraqlarına xəyanətkarlığı olduğunu bildirib və onu "ələkçinin qıl verəni" adlandıraraq söyləyib ki, Ə.Kərimliyə agentlik etməkdənsə, gedib qoca vaxtında "kitabını" yazsın: "Ə.Kərimli müxalifətin "birliyindən", "birgə mitinq" keçirməkdən "ağızdolusu" danışır, ancaq əməldə isə altdan-altdan satqınçılıq edir, əyri yol gedir. Əli bəy, fikirlərini sosial şəbəkələrdə vizual şəkildə izhar edən fanatlar israrla buyururlar ki, bəs Müsavat, sadəcə, yürüş etmək istəyir, biz isə mitinq keçirmək istəyirik. Yürüşlə mitinq fərqli işlərdi və kimsə kimsəyə xəyanət etməyib, qəsdimiz də olmayıb. Bu, nə oyundur? Ə.Kərimli, həmişə olduğu kimi, bu dəfə də satqın statusunu bir daha təsdiqlədi".

### Əli Kərimli-Arif Hacılı ziddiyyətləri pik nöqtəsində

Müsavat başqanı A.Hacılı Ə.Kərimlinin "Milli Şura"da hegemon rol oynadığını və "Sağlam və müstəqil cəmiyyətə müxalifət nəyə gərəkdir" sualına cavab verə bilmədiyini deyib: "Çünki Ə.Kərimliyə normal cəmiyyətdə müxalifət, əsla, gərək deyil. Çünki Ə.Kərimli ancaq müxalifət düşərgəsində hegemon olmaq istəyir, bu da, mümükünsüzdür. Çünki istəsələr də, alınmaz, Ə.Kərimlinin şüuru zəhərlənib artıq".

Bu azmış kimi, C.Həsənli də odun üstünə benzini elə tökür ki, tüstüsü ərşə çıxır. C.Həsənli Facebook səhifəsində belə bir elan paylaşıb: "Dostlar, "Milli Şura" bu gün keçirilən toplantısında sizlərin çoxsaylı müraciətlərinizi nəzərə alaraq mitinq qərarı verdi". Əslində, C.Həsənli belə də yazmalıydı. Çünki şüuru, təfəkkürü bunu "istehsal" edir. Onlar artıq siyasətçi yox, cılız şoumenlər təki davranırlar. AXCP-Müsavat qarşıdurması kimə lazımdır?

### Hafiz Hacıyev: "Əli Kərimliyə kim pul verirsə, onların qucağında oturur"

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev AXCP sədri Ə.Kərimli barədə xəyanətkarlıq faktlarının sayı-hesabı olmadığını bildirərək, vurğulayıb ki, bu əxlaqsız gəda əsl siyasi fahişədir: "Hətta iddia edirəm və sübut etməyə də hazıram ki, bunların adamları qonşu ölkədə gizli danışıqlar apararaq, ölkəmizdə sabitliyi pozmağa yönəlmiş planlar düzənləməklə məşğuldurlar. Hər zaman demişəm, Ə.Kərimli stabil insan deyil, belə adamlara heç nədə etibar etmək olmaz".

H.Hacıyev Ə.Kərimlinin daim siyasi fahişəliklə məşğul olduğunu deyib: "Yəni bu fərdlərə siyasətdə siyasi fahişə, siyasi pozğun deyirlər. Ümumiyyətlə, Ə.Kərimliyə kim pul verirsə, onların qucağında oturur, özü də məmnuniyyətlə. Məsələn, Qərb verəndə Qərbin, Şərq verəndə Şərqin, Şimal da verəndə Şimalın qucağında özünü rahatlayır".

H.Hacıyev onu da bildirib ki, Ə.Kərimli elə alçaq və çirkaba bulaşmış məxluqdur ki, ölkədə mitinq keçirmək istəyi altında siyasi xaos yaralmaq istəyir.

Göründüyü kimi, AXCP və Müsavatın birgə mitinq keçirmək istəyi hələ çox uzanacaq. Çünki satqınlarla xəyanətkarların ambisiyları ilə hikkələri üst-üstə düşmür və adı çəkilən şəxslərin hər biri də özünü müxalifətin şəksiz "lideri" sayır.

***Rəfiqə HÜSEYNOVA***

# "Paşinyan səviyyəsiz və tərbiyəsizdir"

"Ermənistanın baş naziri Nikol Paşinyan hər zaman qeyri-peşəkarlığını və səriştəsizliyini nümayiş etdirir. Hətta deyərdim Paşinyan nəinki səviyyəsizdir, həmçinin tərbiyəsizdir". Bunu SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib. Onun sözlərinə görə, Paşinyan siyasi cəhətdən yetkin deyil: "Yəni küçədən birbaşa gəlmiş bir adam kimi ancaq küçə səviyyəsində düşünə bilir. Təəssüf ki, bu şəxs hal-hazırda Ermənistana rəhbərlik edir. İndiyədək Ermənistan rəhbərlərindən öz əməli ilə Azərbaycana xeyir verən yeganə Paşinyan oldu. Biz indiyədək nə qədər deyirdiksə Ermənistanın rəhbərliyi siyasi cəhətdən yetkin deyil, küçədəngəlmə adamlardır, hamısı siyasətdən uzaq adamlardır onu bir növ əməllə sübut etmək çətin olurdu. Amma indi Paşinyan bunu etdi. Təbii ki, o barədə ona sağol düşür. Lakin bütün hallarda bu dövlətçilik üçün çox biabırçı bir şeydir. Ermənilərin tarixən də dövlətçilik ənənəsi olmayıb. Amma Azərbaycanın dövlətçiliyi min illərlədir. Həm də Azərbaycan Prezidenti ilə müqayisədə bu küçədəngəlmə bir adam olduğuna görə bir daha ölkə başçısının nə qədər uzaqgörən və ağıllı siyasətçi olduğunu gündəmə gətirir. Çünki cənab Prezident Ağdamda səfərdə olarkən özü dedi ki, "biz gözləyirik ki, Ermənistan özü-özünü biabır etsin və çətin vəziyyətə salsın". Bu o deməkdir ki, Qarabağ məsələsində Paşinyanın mövqeyi olmayacaq".

***Ceyhun Rasimoğlu***

# Müxalifət “bazar”ında birləşmə “şou”su

***Hər dəfə müxalifət adlanan siyasət dəllallar birləşmə ideyasını ortaya atanda, qeyri-ixtiyari ekranlarımızın bəzəyi olan “Bəyin oğurlanması” fimi yadıma düşür. Orada məşhur bir ifadə var: “Adam nə qədər evlənib - boşanar, camaatdan ayıbdır axı!” Az qala, otuz ildir bu məmləkətdə müxalifət düşərgəsini zəbt eliyib, bu düşərgəni inhisarına alan zavallılar, hər dəfə seçkilər yaxınlaşanda, birləşmə “şou”sunu atırlar ortaya. Amma ya birləşə bilmirlər, ya da birləşmələri ilə ayrılmaları, ən çox bir-iki ay çəkir.***

Mən də, bu məmləkətin bir sakini olaraq birləşmiş, sağlam, şər, böhtandan uzaq, milli və dövlətçilik mənafelərini qoruyan güclü müxalifətin olmasını çox arzulayıram. Əminliklə deyirəm ki, indiki iqtidar da, ölkənin başçısı da belə bir müxalif qüvvənin olmasını çox istəyir. Çünki sağlam və konstruktiv müxalifət demokratik cəmiyyətin inkişafında mühüm rol oynaya bilər ki, bundan da cəmiyyət, eyni zamanda, bu cəmiyyəti idarə edən iqtidar daha çox udar. Heç bir güclü, özünə, öz yolunun doğruluğuna əmin olan iqtidar idarə etdiyi cəmiyyətdə problemlərin olmasını və xalqın narazılığına səbəb ola biləcək çatışmazlıqların mövcudluğunu arzulamaz. Bəzən bacarıqsız məmurların (belələri bütün iqtidarlarda olur və olmaması mümkün də deyil) gizlətməyə çalışdıqları çatışmazlıqları, məhz müxalifət üzə çıxarmalı, onu ciddi təhlil etməli, mövcudluğunun cəmiyyətin inkişafına vurduğu zərəri ortaya qoymalı, bu halda da, iqtidar həmin problemin həlli yollarını axtarıb-tapmalı, aradan qaldırmalıdır ki, nəticədə, xalq və cəmiyyət üçün dəyərli bir töhfə verilmiş olur. Amma inhisarçı müxalifət neyləyir? Xaricdə özlərinə maliyyə mənbəyi axtarır, tapan kimi də bir az pul əldə edib, buraxır dövriyyəyə. Bir-iki mitinqdən-zaddan eliyir, o biri siyasi özünəbənzərləri də çağırır ki, gəlin birləşək, bu iqtidarı yıxaq, hakimiyyəti alaq(???). Beləcə, birləşmə “şou”su start götürür. Ta o vaxta kimi ki, xaricdən göndərilən pul-para tükənir, heç kəsə pay verilmir (onu alan dəli deyil ki, o birilərə paylasın, bilir ki, nəticə yoxdu, elə girəvədən istifadə eliyib, bir-iki milyon irəli düşür də!..). Elə ki, pay kəsilir, o biri müxalifət siyasiləri başlayırlar şaltay-baltay vurmağa. Yenə görürlər ki, pul gəlmir, bu dəfə başlayırlar bu birləşmə “şou”sunun gözünə zəhər qatmağa. Çünki onlar da, yaxşı anlayırlar ki, nə qədər birləşirlər-birləşsinlər, bu millət indiki iqtidarın ətəyini buraxası deyil. Millət buraxmayacaqsa,



deməli, ən azı, millətin istəyinə xilaf çıxmayacaq və indiki iqtidar da kənara çəkilməyəcək. İqtidar kənara çəkilməyəcəksə, onlara da meydanlarda bağırmaq qalacaq. İndi bu bağırmağa görə, alınan puldan ona pay verilmirsə, nə marağı var ki,bağırsın? Odur ki, başlayırlar elə öz içərilərində, əvvəl-əvvəl, söz güləşinə.Elə ki, bundan bir şey hasil olmur, çıxırlar qol və ayaq güləşinə. Bir az da davam edəndə, güləş dönür qaydasız döyüşə.Yəni artıq başdan da vurdu var, ortadan da tutdu. Amma öz aramızdı, bu dəfə İskəndərlə Turalın davası qaydasız döyüşü də adladı...

Xülasə, beləcə müxalifət yenə xalqdan və millətdən utanmadan “evlənib-boşandılar”. Xalq, millət bir yana, pis-yaxşı onlar da bu millətin övladlarıdırlar (Hər halda, hüquqi baxımdan belədir, çünki sənədlərində belə yazılır). Biz bu evlənib-boşanmaları görürük, göz yumuruq, ayıbımızı gizlətməyə çalışırıq. Yəni “El bizim, sirr bizim” deyirik. Amma bu xaricilərdən ayıbdır axı! Onların da yanında biabır oluruq. Deyirlər ki, bunlar necə millətdi, bu gün birləşib, sabah ayrılırlar, biri gün isə bir-birinə hədyanlar yağdırırlar! Bax, məni narahat edən məsələnin bu tərəfidir. Ona görə də, yazının əvvəlində məşhur filmdəki məşhur deyimi xatırlatdım. Xatırlatması məndən, oxuyub utanması (əgər bir az abır-həyaları qalıbsa) bizim qocaman, beli bükülmüş müxalifətimizin çəlikli nümayəndələrindən!

***Təhmasib Novruzov***

# Qrantlar kəsilsə, müxalifət məhv olacaq

***Xarici ölkələrdə mühacir adı altında gizlənərək, Azərbaycan dövləti və xalqı əleyhinə antitəbliğat kampaniyası aparan azərbaycanlılar bəzən özləri-özlərini də ifşa etmiş olurlar. Misal kimi, Rafael Piriyevlə Məhəmməd Mirzəli arasında ayrılan maliyyə vəsaiti üstündə bir-birini tənqid və təhqir etmələrini göstərmək olar. Bu günlər isə, qondarma vəkil Qurban Məmmədovun “Azərbaycan Xalq Hərəkatı” daxilində parçalanmaları genişləndirmək və rəqiblərini sıradan çıxarmaq yönümündə lent yazısı yayılıb. Sual yaranır, nəyə görə müxaliflər ancaq biri-birini sıradan çıxartmağa daha çox güclərini səfərbər edirlər? Söhbət etdiyimiz müsahiblərimiz müxalifəti bir neçə fondların və qüvvələrin idarə etdiyini, bu səbəbdən də, bir-biri ilə qarşıdurmaya getdiklərini bildirdilər.***

## AMIP funksioneri Əli Orucov: “Müxalifətdə elə şəxslər var ki, onlar qarşıdurmaya və təfriqəçiliyə meyillidi”



- Çox təəssüflər olsun ki, vəziyyətdən çıxmaq üçün “AXH” təmsilçiləri belə bir səs yazısının olduğunu təkzib etdilər. Bunla belə, hərəkat daxilində də qarşıdurmaların olmasını təəssüflə izlədik. Lakin mən bilən, artıq razılığa gəlinib və iclaslar birlikdə keçiriləcək. Müxalifətçilərin bir-birini sıradan çıxarmağa çalışmalarına gəlincə isə, rəqabət normaldır. Lakin bəzən bu rəqabət çərçivəsindən çıxaraq, qəbulolunmaz hallara gətirib çıxarır. Onu da demək lazımdır ki, müxalifət daxilində heç də hamı normal münasibətləri gözləmir. Elə şəxslər var ki, onlar qarşıdurmaya, təfriqəçiliyə meyillidir və belə insanlar da müxalifətdaxili gərginliyin yaranmasına rəvac verirlər. Mən münasibətlərin sivil və normal qaydada tənzimlənməsinin tərəfdarıyam, baxmayaraq ki, buna ümidlər çox azdır.

## “Kaspi” qəzetinin baş redaktoru İlham Quliyev: “Rəhim Qazıyev başqa bir təşkilatın üzvi ilə söyüş dilində danışmışdır”

- “Azərbaycan Xalq Hərəkatı” adlanan təşkilatın daxilində baş verənlər qarşıdurma, dava-dalaş, sözün həqiqi mənasında, gülüş doğurur və bir qədər də ikrah yaradır. Bununla bağlı, bildiyiniz kimi, mediada videoda yayılmışdır. Onların idarə heyətinin son iclasında etikadan kənar hörmətsizlik yaşanmışdır, İsgəndər Həmidov Tural Abbaslını döyməyə cəhd etmişdir. Bunun ardınca, Qurban Məmmədovun “AXH” daxilində parçalanmaların yaradılması yolları ilə bağlı lent yazısı yayılmışdır. Ümumiyyətlə, bu təşkilatın nəyə görə yarandığı, hansı məqsədlərə xidmət etdiyi, ümumiyyətlə, ölkə üçün nələr düşündüyü sirr olaraq qalır. Yəni vaxtilə “Azərbaycan Xalq Hərəkatı”nda təmsil olunmuş çox uğursuz adamlar indi orda birləşiblər. Amma bunların hərəkətləri, hər addımları, bir-birləri ilə münasibətləri hələ də ötən əsrin 88-ci illərinin meydan təfəkküründə qaldığını göstərir. Son iclasda Tural Abbaslı ilə İsgəndər Həmidov arasında çox xoşagəlməz anlar yaşanmışdır. Rəhim Qazıyevin özü başqa bir təşkilatın üzvi ilə söyüş dilində danışmışdır. İndi də Q.Məmmədovun lent yazısı meydana çıxıb. Normal siyasi mübarizə meydanında özünə hörmət edən siyasətçi bu cür faktların üzə çıxmasından sonra təşkilatdan istefa verər. Amma bunlar kötük kimi oturduqları yerdən durmaq istəmirlər. Çünki onlar siyasətə gəlir mənbəyi kimi baxırlar. Ancaq birmənalı tərzdə, demək olar ki, “AXH”-də baş verənlər, hesab edirəm ki, bu təşkilatın heç bir prespektivinin olmadığını göstərir.



***GÜLYANƏ***



# Çürümüş ideologiya...

**RƏFİQƏ**

***Deyir, bir sözü dönə-dönə deməkdən adam özü də utanır. Ancaq bu xəstə dağıdıcı müxalif ünsürlər sözün ucundan tutub ucuzluğa gedən çürümüş ideologiya ilə çirkin əməllərindən əl çəkmir ki, çəkmir. Şəxsi ambisiyalar, gerçəklik və zaman çərçivəsində seçim etməkdə acizlik edənlər niyə müxalifət düşərgəsində cəm olub? İstək və arzuların başdan yuxarı qalxdığı, bacarıqla edə bilməməyin çərçivəsinin cızıldığı müxalifət düşərgəsində nələr baş verir? Elə bu yazıda toxunacağımız məqamlar bunlarla bağlı olacaq. Maraqlar və iddialar üzərində bərqərar olan müxalifət hər saniyə öz sonluğuna doğru daha sürətlə yaxınlaşır.***

Gerçək dəyərlrdən tamamilə uzaq düşmüş, loyal prinsiplərlə idarə olunan müxalifət üçün yekun nəticə göz qabağındadır. Sadəcə olaraq, zaman-zaman bütün olub-keçənləri bir kənara atıb birləşərək, bir mərkəz olacaqlarını bəyan edən müxalifət yetkililərinin səsləndirmiş olduqları qeyri-ciddi bəyanatlar, birmənalı şəkildə, mərkəzdənqaçma oyununa xidmət edib. Bu oyunun oyunçuları və icraçıları arasında isə yarı gizli, yarı aşkar mübarizə gedir. Bu oyunlara transfer olunmuşlar da, hiddət və mərəzin bir addımlığındadırlar. Əsəblər tarıma çəkilib, gözlər bir neçə ünvana dikəlib, icraçılar isə öz havalarındadır. Məhz belə bir məntiq isə acı sonluqdan qaçmağın mümkünsüzlüyünü özündə ehtiva etmiş olur. Ona görə də, müxalifət düşərgəsində yuxarılar aşağıları, aşağılar da yuxarıları eşitmir, görmür, ya da eşitmək və görmək istəmir. Bir-birinə qarşı kar və kor olmaq tendensiyalarından, əl tutmamaq, salam verməmək kimi amillərdən, “sözünü özün deyib, özün eşidirsən” formasındakı “mən səni eşitmək istəmirəm, sən danışsan da, burada bəziləri kənara işləyir” formasında oxşar replikalar yekunda alışmaqda olan barıt çəlləyi üçün bir kibrit çöpü oldu. “Sən məni saymırsansa, mən səni heç dünəndən saymıram” və yaxud Ə.Kərimlinin nazı ilə çox oynamalıydım? AXCP onun dədə malı deyil ki? Burada məndən çox əziyyət çəkən yoxdu, onu yuxarı başa çəkilənlər isə başqalarıdır” deyən narazı cəbhəçilərin bu fikirlərini göstərmək yerinə düşərdi. Yəni məntiq və düşüncə, qavramaq, söz eşidib, kəlmə kəsmək insan üçün normal bir şeydir. Eyni zamanda, bütün yaradılmışların ən alisi olan insan digər canlılardan düşünüb qərar verə bilmək xüsusiyyətlərinə görə də üstün məxluqdur. Əks halda A.Əhmədov kimi “qidalanmaq” tendensiyası, insanlar istisna olmaqla, digər canlılara da xas olardı. At kimi yeyib, it kimi yaşamaq və yaxud “padval” düşüncəsi... nə dərəcədə real və abstrakt deyimdir. “Dostunu mənə göstər, sənin kimi olduğunu deyim” atalarımız bu sözü boş-boşuna deməyiblər.

Yeri gəlmişkən, o da sirr deyil ki, Ə.Kərimli daha bir işdə professionaldır. Keçmiş faktlar da bunu deyir. Məsələn o, A.Əhmədovla Aqil Xəlilə elə dərs keçmişdi ki, axırda da...

Yenə də, nəticə göz qabağında idi. İndi onların biri Fransada, biri də, Allah bilir harda özünə yeni Ə.Kərimli kimi “rəfiqələr” axtarır.

Ümumiyyətlə, bu gün başını və digər yerlərini itirmiş radikal müxalifətdə kimin ağlına nə gəldi onu edir və deyir. Belə məntiqin nəticəsi isə elə bu cür də olmalıdır. Çarəsizlikdən ağıllarına gələnləri edənlər axırda rüsvay olurlar. Nə etsinlər axı, çürük ideologiya ilə bundan artığını əldə edə bilmirlər axı.

# Müstəqil Azərbaycanda gender qanunvericiliyi

**1990-cı illərin ortalarına doğru ölkədə ictimai-siyasi sabitliyin bərqərar olması, qadınlara münasibətdə daha fəal siyasət yürütmək baxımından, geniş imkanlar açdı.**

Azərbaycan Respublikasında insan və vətəndaş hüquqlarının qarantı olan konstitusiya qadın haqları və azadlıqlarının da ən ali qanunvericilik səviyyəsində təminatçısıdır. Onlar dövlətimizin Ana Qanununun "Əsas hüquqlar, azadlıqlar və vəzifələr" adlanan ikinci bölməsində özünün dolğun ifadəsini tapmışdır. Azərbaycan Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını təşkil edir. Azarbaycanın aparıcı genderşünaslarından R.Mirzəzadənin yazdığı kimi, "burada əsas məsələ həyatın bütün sahələrində qadın və kişilərin təkcə bərabər imkanlarla təmin edilməsində deyil, ən əsası, qadının sosial müdafiə obyektindən aktiv hərəkətdə olan şəxsiyyətə çevrilməsində və cəmiyyətdəki mövqeyinin köklü surətdə dəyişilməsindədir".

Konstitusiyanın 25-ci maddəsində deyilir ki, kişi və qadının eyni hüquqları və azadlıqları vardır. Əsas Qanunun 55-ci maddəsində göstərilir ki, Azarbaycan vətəndaşlarının, eləcə də, qadınların dövlət orqanlarına seçmək və seçilmək hüququ - referendumda iştirak etmək hüququ var. Bu müddəa ölkə qanunvericiliyinin digər hiıquqi-normativ aktlarında da öz təsbitini tapmışdır. Ümummilli Lider Heydər Əliyevin 1995-ci il avqustun 12-də imzaladığı "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" qanunun 3-cü maddəsində bəyan edilirdi ki, "Mənşəyinə, siyasi baxışlarına, sosial və əmlak vəziyyətinə, irqi və milli mənsubiyyətinə, cinsinə, təhsilinə, dilinə, dinə münasibətinə, məşğuliyyət növünə və xarakterinə görə Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarının birbaşa, dolayısı ilə və ya başqa şəkildə məhdudlaşdırılması qadağandır.

Konstitusiyanın 25-70-ci maddələrində, o cümlədən, cinsi əlamətə görə ayrı-seçkilik qoymadan əsas insan hüquq və azadlıqlarına dair müddəalar hüquq bərabərliyinin hüquqi-normativ zəminini təşkil edir. Yeri gəimişkən, qeyd edərdik ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 154-cü maddəsi ayrı-seçkiliyə yol verilməməsi ilə əlaqədar konstitusiyada təsbit edilmiş müddəaların pozulmasına dair kifayət qədər ciddi sanksiyalar nəzərdə tutur".

Əsas Qanunun 34-cü maddəsinə görə, ər ilə arvadın hüquqları bərabərdir. Həmçinin, həmin maddədə nikahın könüllü razılıq əsasında bağlanılması haqqında müddəa da yer almışdır.

Yeri gəlmişkən, o dövrdə qüvvədə olan "Nikah və ailə" məcəlləsinin müvafiq maddələri də ailədə hüquq bərabərliyini təsbit edirdi; məcəllə qadın və kişinin bərabər şəxs - hüquqlara və əmlak hüququna malik olduğunu açıq şəkildə bəyan edirdi. Həmçinin, ər-arvaddan hər biri istədiyi məşğuliyyəti, sənəti və yaşayış yerini seçməkdə azad idi.

Konstitusiyanın 42-ci maddəsi qadınlar və kişilərin eyni təhsilalma hüququna malik olduqlarını nəzərdə tutur. Dövlət pulsuz ümumi təhsilə təminat verir.

Azərbaycan Respublikasının 1994-cü il dekabrın 1-də qüvvəyə minmiş "Məzuniyyətlər haqqında" Qanunu qadınlara ictimai istehsalatda əməyi uşaqların tərbiyəsi ilə birləşdirməyə imkan verən daha əlverişli şərtlərin yaradılmasını nəzərdə tuturdu. Məsələn, əsas və əlavə məzuniyyətlərin müddətindən asılı olmayaraq, 14 yaşınadək iki uşağı olan qadınlara 3 təqvim günü, bu yaşda üç və daha çox uşağı olan, həmçinin, 18 yaşınadək 3 təqvim günü bu yaşda olan qadınlara isə 6 təqvim günü müddətində əlavə məzuniyyət verilir (maddə 12). Sözügedən qanunda hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü müddətində ödənişli məzuniyyət də nəzərdə tutulmuşdur (maddə 22). Həmçinin, qanunun 23-cü maddəsində deyilirdi ki, "bilavasitə uşağa qulluq edən valideynlərdən biri uşağın 3 yaşı tamam olanadək ona qulluq etməkdən ötrü qismən ödənişli məzuniyyət almaq hüququna malikdir". Yeri gəlmişkən, 1995-ci il yanvarın 1-dən uşağa qulluq etməyə görə verilən məzuniyyətin müddəti 2 dəfə artırılaraq, 1,5 ildən 3 ilədək uzadılmışdı. Eyni zamanda, verilən müavinətlərin miqdarı da təxminən 3 dəfə artırıldı. 1997-ci ildə 79500 qadına uşağa qulluq etməyə görə 4,2 milyard manat həcmində müavinət verilmişdi.

Azərbaycanda qadın hüquqlarının və gender bərabərliyinin keşiyində duran 150-yə yaxın sənəd imzalanmışdır. Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası qadın hüquqlarının qorunması üzrə, demək olar ki, bütün mühüm beynəlxalq sənədlərə tərəfdar çıxmışdır. 1992-ci il avqustun 4-də Azərbaycan Respublikası BMT-nin "Qadınların siyasi hüquqları" üzrə 1952-ci il Konvensiyasına, 1995-ci il iyunun 30-da "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması" haqqında Konvensiyasına, 2000-ci ildə isə onun Əlavə Protokoluna, 1996-cı il mayın 31-də "Nikaha daxil olmağa razılıq, minimal nikah yaşı və nikahların qeydə alınması haqqında" 1962-ci il tarixli Konvensiyasına, habelə, "Ərdə olan qadınların vətəndaşlığı haqqında" 1957-ci il və "İnsanlarla ticarət və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında" 1949-cu il tarixli Konvensiyalarına, 1998-ci il dekabrın 11-də "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsinə dair" 1990-cı il Konvensiyasına qoşulmuşdur.

Azərbaycan Respublikası 1992-ci ilin mayından Beynəlxalq Əmək Təşkilatının (BƏT) üzvü qəbul edilmişdir. 1993-cü il iyulun 3-də Milli Məclis Beynəlxalq Əmək Təşkilatının əvvəllər SSRİ tərəfindən qəbul olunmuş Konvensiyalarının qüvvəsinin Azərbaycan Respublikası ərazisinə şamil edilməsi haqqında qərar çıxarmışdır. Digər Konvensiyalarla yanaşı, ölkəmiz BƏT-in 1951-ci il 29 iyun tarixli "Bərabər əməyə görə kişilərə və qadınlara bərabər əmək haqqı verilməsi haqqında", 21 iyun 1935-ci il tarixli "Qadınların müxtəlif yeraltı işlərdə və şaxtalarda əməyinin məhdudlaşdırılması haqqında", 28 iyun 1952-ci il tarixli "Analığın mühafizəsi haqqında", 25 iyun 1958-ci il tarixli "Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında" (bu Konvensiya əmək və məşğulluq sahəsində irq, dərisinin rəngi, cins, etiqad, sıyasi əqidə, milli mənşə, yaxud sosial mənsubiyyət əlamətlərinə görə həyata keçirilən hər cür ayrı-seçkiliyin aradan qaldırılmasına çağırılmışdı) Koavensiyalarına qoşulmuşdur. Ümumiyyətlə, XXI əsrin əvvəllərinə doğru Azərbaycanın qoşulduğu 47 BƏT sazişindən 13-ü qadınların və yemyetmələrin əmək və məşğulluq problemlərinə aiddir.

S.Abbasov yazır: "BMT Konvensiyaları arasında, şübhəsiz ki, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya (CEDAW) xüsusi önəmə malikdir. Birinci fəsildə də, qeyd etdiyimiz kimi, qadınların fərdi və kollektiv hüquqlarının müdafiəsi nöqteyi-nəzərindən əsas həyata keçirilən əsas sənəd olan bu Konvensiya "qadınlara qarşı ayrı-seçkilik" anlayışının dəqiq tərifini verməklə, qadınların cəmiyyətdə yerini və rolunu səciyyələndirən problemlərin geniş spektrini əhatə edir." Əslində, bu Konvensiyaya qoşulmaqla Azərbaycan Respublikası bir daha hüquqi - demokratik dövlət quruculuğu ideyasına tərəfdarlığını təsdiq etməklə yanaşı, qadın hüquqlarının müdafiəsi və əməli surətdə həyata keçirilməsi sahəsində sivil dünya üçün artıq yaşam normasına çevrilmiş ən qabaqcıl standartlara qatıldığını nümayiş etdirmiş olurdu. Hökumətin sonrakı addımları bu hadisənin quru bəyanat yox, həqiqətən, qadınlarımızın ictimai-siyasi və sosiaiiqtisadi həyata daha fəal cəlb olunmaları istiqamətində möhkəm hüquqi baza olduğunu sübut etdi. Qeyd etməliyik ki, Azərbaycan Respublikası sözügedən Konvensiya üzrə ilk hesabatın BMT-nin müvafiq komitəsinə 1997-ci ilin sentyabrında təqdim etmişdir. Məruzədə Azərbaycanın müstəqillik əldə etdikdən sonra üzləşdiyi problemlər ətraflı şərh edilmiş, bu problemlərin Ermənistan Respublikasının açıq təcavüzü, ölkəmizin ərazisinin 20%-inin işğal olunması, 1 milyona yaxın vətəndaşın öz yurdlarından didərgin düşməsi səbəbi ilə daha da ağırlaşması zəngin statistik məlumatlara istinadən xüsusi vurğulanmış, ölkədə qadınların vəziyyətindəki dəyişikliklərin təsviri verilmişdir. Orada, həmçinin, Azərbaycan Respublikasında insan hüquqlarını təmin edən ümumi hüquqi əsaslar təfərrüatı ilə şəkildə açıqlanmışdır. Bu zaman konstitusiyanın müvafiq maddələrindən zəruri sitatlar gətirilmişdir. Məruzədə o illərdə qüvvədə olan qanun və məcəllələrdə qadınların hüquqi bərabərliyi (o cümlədən, hələ 1991-ci il iyunun 27-də qəbul edilmiş "Azərbaycan Respublikasında əhalinin məşğulluğu haqqında!" qanunla əmək münasibətləri sahəsində təsbit edilmiş gender bərabərliyi prinsipinin, habelə, qadınlara münasibətdə ayrı-seçkiliyə qarşı müddəaların hansı formada əks olunmasının xülasəsi verilir. Gətirilmiş bilgilərə əsasən, respublikanın dövlət və təsərrüfat idarəçiliyi orqanlarının aparat işçilərinin 1/3-ni qadınlar təşkil edirdi. Ölkəmizin 1990-cı illərin ortalarında xaricdəki səfirliklərində 15 qadın çalışırdı ki, onlardan 1-i səfir, 1-i müşavir, 5-i attaşe və 8-i texniki işçi idi. Məruzədə, həmçinin, qeyd olunurdu ki, əksər Azərbaycan qadınları yüksək səviyyəli təhsil almışlar və 1996-cı ildən etibarən, ali təhsil alan qızların sayı oğlanların sayını üstələmişdi. Lakin kişilərlə müqayisədə daha çox sayda qadın işsizdir və az sayda qadın qərarların qəbul edilməsi səlahiyyətlərinə malik vəzifələrdə təmsil olunmuşdur.

**Azərbaycanda qadın hüquqlarının və gender bərabərliyinin keşiyində duran 150-yə yaxın sənəd imzalanmışdır. Dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası qadın hüquqlarının qorunması üzrə, demək olar ki, bütün mühüm beynəlxalq sənədlərə tərəfdar çıxmışdır**

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# BMT-dən xəbərdarlıq: Piylənmə problemi qlobal miqyas alır



Piylənmə qlobal probleme çevrilməkdədir. BMT-nin saytında yer alan məlumata görə, bu barədə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) rəhbəri Joze Qratsianu da Silva təşkilatın İdarəçilər Şurası qarşısında çıxış edərkən bildirib. "Biz daha yalnız aclıqla mübarizə aparmırıq. Dayanıqlı inkişaf üzrə ikinci əhəmiyyətli məqsəd düzgün qidalanmamağın bütün növlərinin aradan qaldırılmasından ibarətdir. Artıq çəkidən və piylənmədən əziyyət çəkən insanlar dünyanın hər yerində getdikcə artır", - deyə Qratsianu da Silva bildirib.

"Əgər aclıq müəyyən yerlərdə yayılıbsa, piylənmə əksinə, hər yerdə mövcuddur", - deyə o əlavə edib. FAO-nun məlumatına görə, 1975-ci ildən başlayaraq, bütün dünyada piylənmə göstəriciləri təxminən 3 dəfə artıb ki, bu da ürək-damar, xərçəng və diabet xəstəlikləri hallarının çoxalmasına gətirib çıxarıb.

FAO-nun saytında dünyanın bütün ölkələri üzrə sağlam qida ilə bağlı məsləhətlər toplusunu tapmaq mümkündür. Planetin diyetoloqlarının başlıca məsləhəti - bacardıqca daha çox meyvə və tərəvəz yeyilməsidir. Mütəxəssislər, həmçinin çoxlu su qəbul etməyi, alkoqol və duzdan sui-istifadə etməməyi, həmçinin yağ qəbulunu, tərkibində şəkərin çox olduğu ərzaq və içkiləri azaltmağı tövsiyə edirlər.

Joze Qratsianu da Silva İdarəçilər Şurasının üzvlərinə bu il keçiriləcək bir sıra tədbirləri, o cümlədən balanslaşdırılmış qida ilə bağlı seminarları xatırladıb.

# Quru meyvələrin faydası



Təkcə təzə deyil, quru meyvələrin yeyilməsinin də insan sağlamlığına müsbət təsiri danılmazdır. AZƏRTAC xəbər verir ki, elmi araşdırmalar nəticəsində məlum olub ki, tərkibi A vitamini ilə zəngin qaysı stress və qan azlığını aradan qaldırır, dəridəki problemlərə yaxşı təsir göstərir. Gündə 5 ədəd qaysı yemək ürək damarları və sinir sistemi üçün faydalıdır.

Enerji mənbəyi olan kişmiş bəlğəmgətirici xassəyə malikdir. Gündə 10 ədəd kişmiş yemək təzyiqi aşağı salır, iltihablara qarşı dərman vasitəsi kimi də istifadə olunur.

Alma qurusu da sağlamlıq üçün çox xeyirlidir. Hər gün bir ovuc alma qurusu yorğunluğu aradan qaldırır. Xurma antioksidant təsirə malikdir. Orqanizmi gücləndirir, xərçəngdən müdafiə edir, dərinin gözəlləşməsi üçün də xurma yemək çox faydalıdır. Tərkibində olan B1 və B2 vitaminləri sinir sistemini qoruyur. Quru tut qan artıran vasitədir. Hərarəti aşağı salmaq üçün də təsirli vasitədir. Vitaminlə zəngin quru tut stressi aradan qaldırır və tox saxlayır. Əncir qurusu tərkibində yağ və xolesterin olmadığına görə arıqlamaq istəyənlər üçün yaxşı vasitədir, boğaz ağrıları üçün də xeyirlidir.

# Qroznıdan Bakıya yeni aviareyslər açılacaq

Bu ilin mayında Qroznıdan Bakıya yeni aviareyslər açılacaq. AZƏRTAC Çeçen Respublikası hökumətinin mətbuat xidmətinə istinadla xəbər verir ki, bunu "Vaynaxavia" şirkətinin baş direktoru Sultan Qambulatov bəyan edib. Onun sözlərinə görə, aprelin 19-da Qroznı və Şarca (BƏƏ) arasında müntəzəm aviareyslər bərpa olunacaq. Bu aviareysləri "Air Arabia" şirkəti həftədə iki dəfə həyata keçirəcək. O, həmçinin vurğulayıb ki, may ayında Qroznıdan Antalya və Bakıya yeni beynəlxalq aviareyslər açılacaq.


**ELAN**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya ixtisası üzrə IV kurs tələbəsi Əliyeva Səbuhə Cəlil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



**səs**




# Sərbəst güləşçimiz Avropa çempionu oldu!



Sərbəst güləşçimiz Cəbrayıl Həsənov Buxarestdə keçirilən Avropa çempionatının qalibi olub. SİA-nın məlumatına görə, o, vaxtından əvvəl - final matçına çıxmadan bu ada sahib olub. Məsələ burasındadır ki, 79 kq. çəkidə yarışan güləşçimiz finalda Əhməd Qazıməhəmmədovla (Rusiya) qarşılaşmalı idi. Həkimlərin qərarına əsasən, Qazıməhəmmədov həlledici görüşə çıxmayacaq. Buna onun yarımfinalda zədələnməsi səbəb olub. Rusiya millisinin baş məşqçisi Dzambolat Tedeyev Rusiya Güləş Federasiyasının saytına açıqlamasında məlumatı təsdiqləyib. O qeyd edib ki, Qazıməhəmmədov bu gün səhər tibbi müayinədən keçib. Bundan sonra həkimlər onun final görüşünə çıxmağına icazə verməyiblər.

Beləliklə, Əhməd Qazıməhəmmədov finalda iştirak etməyəcəyi üçün yarışın gümüş, Cəbrayıl Həsənov isə qızıl medalına layiq görüləcək. Qeyd edək ki, Rio Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı olan C.Həsənov 2010 və 2011-ci illərdə də Avropa çempionu adını qazanıb.

# "Shamkir Chess 2019" superturnirinə yekun vurulub



Azərbaycanın tanınmış şahmatçısı, qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunan "Shamkir Chess 2019" superturnirinə aprelin 9-da yekun vurulub. AZƏRTAC xəbər verir ki, sonuncu - doqquzuncu turda Şəhriyar Məmmədyarov rusiyalı Sergey Karyakin, Teymur Rəcəbov isə çexiyalı David Navara ilə heç-heçə edib.

Səkkizinci turda vaxtından əvvəl dünya çempionluğunu təmin edən Maqnus Karlsen sonuncu partiyada Aleksandr Qrişuku məğlub edib. Doqquzuncu turun digər oyunları heç-heçə başa çatıb. Yekun nəticəyə görə, Maqnus Karlsen 7, Dinq Liren və Sergey Karyakin 5, Aleksandr Qrişuk, Vişvanatan Anand və Teymur Rəcəbov 4,5, David Navara, Veselin Topalov 4, Şəhriyar Məmmədyarov 3,5, Aniş Giri isə 3 xal toplayıblar.

Xatırladaq ki, norveçli dünya çempionu 2014-cü, 2015-ci və 2018-ci illərdə də turnirin qalibi olub. 2016-cı və 2017-ci illərdə isə Şəhriyar Məmmədyarov çempion adını qazanıb.

# Pele xəstəxanadan evə buraxılıb



Braziliyalı əfsanəvi futbolçu Pele xəstəxanadan evə buraxılıb. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, bir neçə gün əvvəl Peledə yoluxucu xəstəliyin ağırlaşması qeydə alınıb. Dünya futbolunun 79 yaşlı əfsanəsinin yalnız bir böyrəyinin olması da narahatlığa səbəb olub. O, xəstəxanada müalicəsini başa vurub. Futbolçu bildirib ki, xəstəxanadan sonra evə yola düşəcək. Lakin o, tezliklə yenidən Fransanın paytaxtı Parisə qayıda biləcəyinə ümid edir. Qeyd edək ki, Pele bir neçə gün əvvəl Fransanın paytaxtında xəstəxanaya yerləşdirilib. O, PSJ-nin oyunçusu Kilian Mbappe ilə görüşdükdən sonra oteldən xəstəxanaya aparılıb.

# "Qalatasaray"lı futbolçu "Fənərbaxça" derbisində oynamayacaq



"Qalatasaray" ciddi itki ilə üzləşib."Fanatik" nəşrinin yazdığına görə, komandanın aparıcı üzvlərindən olan Kristian Luyindama cəzalı olduğundan Superliqanın növbəti turunda "Fənərbaxça" ilə keçiriləcək oyunu buraxacaq.

Konqolu müdafiəçi Türkiyə kubokunda "Malatyaspor"la görüşdə birbaşa qırmızı vərəqə alıb. Türkiyə Futbol Federasiyası isə onu iki oyunluq cəzalandırıb. Qeyd edək ki, "Fənərbaxça" - "Qalatasaray" oyunu aprelin 14-də keçiriləcək.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500